# ÜST-dən müjdə...

## Avropa pandemiyanın sonuna yaxınlaşır



**Koronavirusun "omikron" ştammı Avropada COVID pandemiyasına son qoya bilər.**

Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa Regional Direktoru Hans Kluge bildirib.

"Çox güman ki, bölgə pandemiyanın sonuna yaxınlaşır", deyə ÜST rəsmisi bəyan edib.

*Qeyd edək ki, Cənubi Afrikada aşkar olunan ştamm yüksək yoluxuculuğu ilə seçilir və əksər ölkələrdə yoluxma sayının kəskin artmasına səbəb olub.*



## Koronavirusa yoluxan müəllim və şagirdlərin sayı açıqlanıb

**Azərbaycanda koronavirusa yoluxan müəllim və şagirdlərin sayı açıqlanıb.**

Təhsil Nazirliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, 23 yanvar 2022-ci il tarixinə əsasən COVİD-19-a yoluxan şagird sayı 161, işçi heyətin sayı isə 73-dür.


❐ № 13 (5535), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 25 yanvar 2022-ci il (çərşənbə axşamı)




# Çox az qaldı

## Toylarda 150 nəfərlik limit artırılacaq

**Azərbaycanda toylarda qonaq sayı üçün mövcud olan 150 nəfərlik limit, 250-300-ə qədər qaldırıla bilər.**

Bu barədə Trend-ə bazar iştirakçıları məlumat verib.

Belə ki, toy bazarının bir neçə iştirakçısı iddia edir ki, mövcud məhdudiyyət fevral ayından sonra artırıla bilər. Bildirilir ki, şadlıq sarayları artıq mart və aprel aylarında toy mərasimi keçirmək istəyənlərə də bu barədə məlumat verir və nəzərə almağa çağırırlar.

Trend məsələni araşdırmaq üçün aidiyyatı qurumlarla əlaqə saxlayıb. Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov Trend-in sorğusuna cavab olaraq bildirib ki, bu barədə məlumat yoxdur.

Digər aidiyyatı qrumlardan isə hələki sorğularımıza cavab verilməyib.

(səh.2)



## Səməd Seyidov AŞPA-da vitse-prezident seçildi

**Azərbaycanlı deputat AŞPA-nın Monitorinq Komitəsinin birinci vitse-prezidenti seçilib.**

Bu barədə deputat Səməd Seyidov özünün twitter hesabında məlumat verib. Qeyd edək ki, Səməd Seyidov bir neçə dəfə - 2003-2005, 2007-2009, 2011-2013 - Avropa Şurası Parlament Assambleyasında vitse-prezident və Büro üzvü olub. 2018-ci ildən Avropa Şurası Parlament Assambleyasının vitse-prezidentidir. Dünən Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yeni sədri də seçilib. Bu, niderlandlı senator Tini Koksdur. Səsvermə zamanı 164 deputat T.Koksu dəstəkləyib.

Onun rəqibi, Ukrayna Ali Radasının deputatı Mariya Mezentseva 80 səs toplayıb.

## Ərdoğan Ukraynaya səfərindən sonra Putinlə görüşə bilər



**Türkiyə və Rusiya prezidentlərinin görüşünün nə zaman baş tutacağına Rəcəb Tayyib Ərdoğanın Ukrayna səfərindən sonra qərar veriləcək.**

APA-nın yerli bürosunun xəbərinə görə, bu barədə AKP sözçüsü Ömər Çelik mətbuat konfransında bildirib.

O qeyd edib ki, Türkiyə Prezidenti regionu tanıyan ən təcrübəli dövlət başçılarından biridir: "Onun təcrübəsi və hər iki tərəflə ortaq nöqtədə olmaq iradəsi hamı tərəfindən hörmətlə qarşılanır. Ukraynaya səfər bu böhranda gərginliyin azaldılması baxımından əhəmiyyətli olacaq. Putinlə necə görüşəcəyinə isə Ukrayna səfərindən sonra qərar veriləcək".

# "Ermənistan sülh sazişi imzalamağa hazırdır"

## Paşinyan deyib ki, Yerevanın demarkasiya və delimitasiya üçün ilkin şərtləri yoxdur



**Rəsmi Yerevan hesab edir ki, Bakı ilə sülh müqaviləsi imzalanmalıdır, lakin bu sənəd danışıqlar prosesində işlənməlidir.**

Bu barədə bazar ertəsi Ermənistanın Baş naziri Nikol Paşinyan feysbukdakı səhifəsində onlayn keçirilən mətbuat konfransında bildirib. "Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı çox danışılır. Bəli, imzalanmalıdır, lakin əvvəlcə bu sənəd rəsmiləşdirilməlidir, amma bu, bir sual və danışıqların nəticəsidir. Ermənistan bunlara hazırdır və biz bunu dəfələrlə bildirmişik". Baş nazir əlavə edib ki, Yerevanın demarkasiya və delimitasiya üçün ilkin şərtləri yoxdur.

(səh.2)



## "Panikaya əsas yoxdur"

Vladimir Zelenski: "Ukraynada hazırkı vəziyyət nəzarət altındadır"

**Ukraynada və onun ətrafında hazırkı vəziyyət nəzarət altındadır və panikaya səbəb yoxdur.**

Trend-in məlumatına görə, bu barədə Ukrayna prezidenti Vladimir Zelenski Milli Təhlükəsizlik və Müdafiə Şurasının iclasından sonra "Rada" telekanalında çıxışı zamanı deyib.

V.Zelenski bildirib: "Bu iclasın yekunu media məkanı üçün səs-küylü qərarlar deyil, cəmiyyətimiz və vətəndaşlarımız üçün çox vacib nəticələr olub: hər şey nəzarət altındadır, panikaya əsas yoxdur".

# Mənasız qürur...

## Kreml Ukrayna ilə savaşın Rusiya üçün dağıdıcı nəticələrə səbəb olacağını anlamır

**NATO-Rusiya gərginliyi azalmaq əvəzinə daha da artmaqdadır. Cenevrə, Brüssel və Vyanada baş tutan görüşlər də buzları əritməyə kifayət etmədi. Rusiyanın Şərqi Avropa ölkələri ilə bağlı konkret şərt irəli sürməsi və Qərbin bunları rədd etməsi vəziyyəti bir qədər də kritikləşdirdi.**

Moskva postsovet məkanında Rusiyanın təsirini gücləndirmək üçün yeni addımlar atır. İsrarla NATO-nun Mərkəzi və Şərqi Avropa ölkələrində hərbi fəaliyyətini dayandıracağına dair yazılı təminat tələb edir. Vaşinqtonu hədələyən Rusiya Ukraynanın NATO-ya üzvlüyünə "milli təhlükəsizlik" məsələsi kimi baxdığını deyir. Kuba və Venesuelaya qoşun yerləşdirməsindən danışır. Qərb mediası Putinin hərəkətlərini böyük imperiyanı yenidən qurmaq cəhdi kimi qiymətləndirir.

(səh.3)




## Daha 757 nəfər koronavirusa yoluxub

9 nəfər vəfat edib, 302 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 757 yeni yoluxma faktı qeydə alınıb, 302 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 634 488 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 612 594 nəfər müalicə olunaraq sağalıb, 8 619 nəfər vəfat edib, aktiv xəstə sayı 13 275 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5 145, ötən müddət ərzində isə ümumilikdə 6 070 424 test aparılıb.

## Yeni cərimələr müəyyən edilir

Məqsəd dəm qazından zəhərlənmənin qarşısını almaqdı



**Qaz qurğuları və qaz xəttlərinə, tüstü bacalarına, habelə havalandırma və havadəyişmə xəttlərinə texniki xidmət qaydalarının pozulmasına görə cərimələr müəyyən edilir.**

Trend-in məlumatına görə, bununla bağlı İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilir. Dəyişikliyə əsasən, qeyd olunan pozuntuya görə fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə ediləcək.



## "Mən yenə fikrimdə qalıram"

Aqil Abbas: "Tağıyevin heykəlinə zərər verənlərə heç olmasa, 15 sutkalıq cəza verilməliydi"

(səh.4)

## "Akademiya rəhbəri məişət səviyyəsində intriqalarla məşğuldur"

Boran Əziz: "Bu, Ramiz Mehdiyevin elm xadimlərinə qarşı soyqırımı siyasətidir"

(səh.4)



# Fatma Səttarova "İstiqlal" ordeni ilə təltif edilib

## Prezident 100 illik yubileyi münasibətilə müharibə veteranına təbrik məktubu da göndərib



**Fatma Hüseyn qızı Səttarova ”İstiqlal” ordeni ilə təltif edilib.**

**Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Fatma Səttarova Azərbaycan Respublikasının ictimai həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə ”İstiqlal” ordeni ilə təltif olunub.

Prezident İlham Əliyev Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, İkinci Dünya müharibəsi veteranı Fatma Səttarovaya təbrik məktubu da ünvanlayıb.

**Məktubda deyilir:**

”Hörmətli Fatma xanım,

Əlamətdar yubileyiniz - anadan olmağınızın 100 illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz şərəfli ömür yolu keçərək bütün həyat və fəaliyyətinizi doğma Vətəninizə xidmətə həsr etmiş, İkinci Dünya müharibəsi illərində yenilməz iradə və qətiyyət nümayiş etdirmisiniz.

Cəbhəyə könüllü yollanaraq Leninqrad şəhərinin mühasirəsi zamanı və Moskva ətrafında gedən döyüşlərdə fəal iştirakınız fədakarlıq və şücaətin bariz nümunəsi idi. Xalqımızın məhz Sizin kimi yüz minlərlə mərd övladlarının cəsarəti, igidliyi, əzmkarlığı sayəsində Azərbaycanın adı faşizmə qarşı mübarizənin ön cərgəsində yer almış dövlətlər sırasındadır.

Sonrakı dövrlərdə Siz ölkəmizin ictimai həyatında yaxından iştirak etmiş, gənclərin vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinə, layiqli vətəndaşlar kimi yetişməsinə töhfə vermisiniz. 44 günlük Vətən müharibəsi zamanı təmsil etdiyiniz Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı dövlətimizin, ordumuzun yanında olmuş, qazilərimizə, şəhid ailələrimizə mənəvi dəstək vermiş, diqqət və qayğı göstərmişdir.

**Hörmətli Fatma xanım,**

Sizin həyat və mübarizə yolunuz Vətənə, xalqa sədaqət və ləyaqətlə xidmət nümunəsi, gənclərə və gələcək nəsillərə örnəkdir.

Belə bir xoş gündə Sizə bir daha ən səmimi təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik və fəaliyyətinizdə uğurlar arzulayıram”.

# Serbiya baş nazirinin müavini Azərbaycana gələcək



**Serbiya baş nazirinin müavini, energetika və mədən sənayesi naziri Zorana Mihayloviç fevral ayında ”Cənub Qaz Dəhlizi” Məşvərət Şurasının iclasında iştirak etmək üçün Azərbaycana səfər edəcək.**

Bu barədə Trend-ə Serbiyanın Energetika və Mədən Sənayesi Nazirliyindən bildiriblər.

”Serbiya nümayəndə heyətinin tərkibinə həm də dövlət katibi və nazirin köməkçisi daxil olacaq”, nazirlikdən deyiblər.

Qeyd edək ki, ”Cənub Qaz Dəhlizi” 2020-ci il dekabrın 31-dən etibarən Azərbaycan qazının Avropaya nəqlinə başlayıb. Layihənin dəyhəri 45 milyard dollar proqnozlaşdırılsa da, 33 milyard dollar təşkil edib.

2015-ci ildən etibarən hər il fevral ayında ”Cənub Qaz Dəhlizi” Məşvərət Şurasının iclası keçirilir.

# Polşa Belarusla sərhəddə yeni divar inşa edəcək

**Polşa - Belarus sərhədində 5 metr hündürlükdə divarın inşaatına yanvarın 25-də başlayacaq.**

APA-nın xəbərinə görə, bu barədə jurnalistlərə Polşa sərhəd xidmətinin sözçüsü Anna Mixalskaya bildirib. ”Plana uyğun olaraq Belarusla sərhəd divarının tikintisi sabah başlayacaq. Hazırlıq işləri artıq görülüb” deyə Mixalskaya vurğulayıb. Uzunluğu 186 km, hündürlüyü 5.5 metr olan divarın inşası iyulda başa çatmalıdır. Artıq büdcədən 644 milyon zlotı (160 milyon dollar) ayrılıb. Sərhəd xətti müasir kameralarla da təchiz ediləcək.

# “Ermənistan sülh sazişi imzalamağa hazırdır"

## Paşinyan deyib ki, Yerevanın demarkasiya və delimitasiya üçün ilkin şərtləri yoxdur



**Rəsmi Yerevan hesab edir ki, Bakı ilə sülh müqaviləsi imzalanmalıdır, lakin bu sənəd danışıqlar prosesində işlənməlidir.**

Bu barədə bazar ertəsi Ermənistanın Baş naziri Nikol Paşinyan feysbukdakı səhifəsində onlayn keçirilən mətbuat konfransında bildirib.

”Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması ilə bağlı çox danışılır. Bəli, imzalanmalıdır, lakin əvvəlcə bu sənəd rəsmiləşdirilməlidir, amma bu, bir sual və danışıqların nəticəsidir. Ermənistan bunlara hazırdır və biz bunu dəfələrlə bildirmişik”.

Baş nazir əlavə edib ki, Yerevanın demarkasiya və delimitasiya üçün ilkin şərtləri yoxdur.

**Paşinyanın açıqlamasını ”Şərq”ə şərh edən politoloq Turab Rzayev bildirib ki, əslində Ermənistan lideri Azərbaycanla sülh müqaviləsi imzalayacağını söyləmək istəyir:**

”Bu qaçılmaz gerçəklikdir. N.Paşinyan əvvəl danışıqların aparılmasını, sonra yekun sülh müqaviləsinin imzalanmasını təsdiqləyir. O, bununla özünə əlavə manevr imkanı qazanmaq istəyir. Çünki indiki şərtlərlə sülh müqaviləsinin imzalanması sülh bəyanatının təkrarlanmasıdır, bu isə Ermənistana sərf etmir. Bu, Paşinyana baha başa gələ bilər. Ona görə Paşinyan düşünür ki, hər hansı bir şəkildə danışıqlar aparılsın. Amma şərtlərlə bağlı heç nə demir. Səbəblər aydındır. Qarabağdakı ermənilər barədə şərtlərdən danışılsa, Azərbaycan məsələni ciddiyə almayacaq, cavab neqativ olacaq. Sülh müqaviləsini imzalamağa hazır olduğunu deməsi isə rəsmi İrəvanın indiki vəziyyətlə barışması və Azərbaycanı Qarabağ müharibəsində qalib kimi tanıması demək olacaq. Buna da açıq şəkildə gedə bilmədiyindən öncəliklə danışıqların aparılmasını üstün tutur. Əslində üçtərəfli 10 noyabr bəyanatı, sülh bəyanatı idi. Münaqişəni bitirmək üçün yekun sülh müqaviləsinin imzalanması vacibdir. Amma sülh müqaviləsi Ermənistanın yeni şərtləri ilə deyil, bəyanatın ana xəttləri əsas götürülərək, digər məsələlər də detallı incələnərək, razılaşdırılaraq imzalanmalıdır. Azərbaycan tərəfi təşəbbüsü ələ alıb, sülh müqaviləsini imzalamağa hazır olduğunu bildirməlidir. Lakin Ermənistan Azərbaycandan üçtərəfli bəyanatın onlara verdiyi imkandan daha çox imtiyaz verməsini gözləməməlidir”.

**Aygün Tahir**

# Çox az qaldı

## Toylarda 150 nəfərlik limit artırılacaq



**Azərbaycanda toylarda qonaq sayı üçün mövcud olan 150 nəfərlik limit, 250-300-ə qədər qaldırıla bilər.**

Bu barədə Trend-ə bazar iştirakçıları məlumat verib.

Belə ki, toy bazarının bir neçə iştirakçısı iddia edir ki, mövcud məhdudiyyət fevral ayından sonra artırıla bilər. Bildirilir ki, şadlıq sarayları artıq mart və aprel aylarında toy mərasimi keçirmək istəyənlərə də bu barədə məlumat verir və nəzərə almağa çağırırlar.

Trend məsələni araşdırmaq üçün aidiyyatı qurumlarla əlaqə saxlayıb. Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov Trend-in sorğusuna cavab olaraq bildirib ki, bu barədə bir məlumat yoxdur.

Digər aidiyyatı qrumlardan isə hələki sorğularımıza cavab verilməyib.

Hazırda toylarla bağlı qaydalara əsasən, toyların yalnız 150 nəfərədək keçirilməsinə icazə verilir. Qeyd edək ki, Azərbaycanda ötən ilin bir iyul tarixindən etibarən toyların keçirilməsinə icazə verilib. Toyda iştirak edən qonaqların isə mütləq vaksin və ya immunitet sertifikatının olması tələb olunur. Məkan və toy sahiblərin şənlik məclisləri barədə məlumatı müvafiq portalda əvvəlcədən və dəqiqliklə (tədbirin günü, başlama və bitmə saatı, iştirakçıların sayı) qeydiyyata salınmalıdır.

Karantin rejiminin qayda və tələblərinin pozulması halları aşkaralanarsa, həm toyun, həm də obyektin sahibinə qarşı qanunvericiliyə uyğun inzibati cəza tədbirləri görülür.

*Xatırladaq ki, fevralın 15-dən sonra Azərbaycanda COVID-19 pasportu və immunitet sertifikatı müddətli olacaq. COVID-19 pasportlarının müddəti 6 ay müəyyən edilib. Vətəndaş 6 ay bitikdən sonra COVID-19 pasportunun müddətini uzada bilmək üçün 3-cü (buster) doza vaksin qəbul etməlidir.*



# *XİN başçısı:* “İran-Azərbaycan əlaqələrində önəmli hadisələr gözlənilir"

**İran-Azərbaycan əlaqələrində önəmli hadisələr gözlənilir. Bunu İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan APA-nın Tehran müxbirinə eksklüziv açıqlamasında deyib.**

O bildirib ki, İran-Azərbaycan əlaqələri çox yaxşı səviyyədədir.

XİN rəhbəri İranın yol və şəhərsalma naziri Rüstəm Qaseminin Azərbaycana səfəri, eləcə də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun İrana gözlənilən səfərinə də münasibət bildirib.

“İki ölkənin müxtəlif rəsmilərinin qarşılıqlı səfərləri əlaqələrimizin düzgün və yaxşı istiqamətdə olduğunu göstərir”, - İran XİN başçısı vurğulayıb.

Hüseyn Əmir Abdullahiyan Bakıda səfərdə olarkən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edildiyini də xatırladıb. Nazir diqqətə çatdırıb ki, bundan sonra iki ölkənin əlaqələrində mühüm hadisələr cərəyan etməkdədir.

# İnsanlığa yox, şərə xidmət edirlər

## “Human Rights Watch”ın hesabatı riyakarlığın əyani təsdiqidir




**İsmayıl Qocayev**

**“Human Rights Watch” təşkilatının Azərbaycana qarşı qərəzi pik həddə çatıb. Daim ikili standartları ilə seçilən qurum ölkəmizə qarşı şər-böhtan dolu növbəti ”hesabat” açıqlayıb. Təşkilatın 2021-ci il üzrə hesabatında iddia edilib ki, guya, İkinci Qarabağ müharibəsi zamanı Ermənistanda 71 məktəb ”dağıdılıb”.**

Hesabat müəllifləri ikinci Qarabağ müharibəsinin Ermənistan deyil, məhz işğal edilmiş Azərbaycan ərazisində aparıldığını görməzdən gəliblər. Bütün dünya bilir, hətta Ermənistan rəhbərliyi, eləcə də Rusiya Prezidenti Vladimir Putin dəfələrlə bəyan edib ki, müharibə Ermənistan ərazisində getmir. Bu, sübuta ehtiyacı olmayan faktdır. Buna baxmayaraq, ”Human Rights Watch” təşkilatı həyasızcasına ”Ermənistan ərazisində” 71 məktəbin dağıdıldığını yazır. Şübhə yox ki, hesabatı hazırlayanlar 30 ilə yaxın erməni işğalı altında qalmış ərazilərimizdə Ermənistanın yüzlərlə məktəbi, uşaq bağçasını, minlərlə evi, onlarla məscidi tamamilə dağıtdığını, yer üzündən sildiyini yaxşı bilirlər. Eyni zamanda düşmənin 44 günlük savaş zamanı Gəncə, Bərdə, Tərtər və Goranboyu atəşə tutması, mülki şəxslərin üzərinə raket atması faktları ilə də tanışdırlar. Lakin onların qərəzi və ermənipərəstliyi bu həqiqətlərin dilə gətirilməsinə mane olur.

**Milli Həmrəylik Partiyasının sədri, Birinci Qarabağ müharibəsinin iştirakçısı Əlisahib Hüseynov ”Şərq”ə bildirib ki, ”Human Rights Watch”ın hesabatı saxtakarlığa əsaslanır. Partiya rəhbərinin sözlərinə görə, bu hesabat özünü dünyada haqq və ədalətin ”keşikçi”si kimi təqdim edən təşkilat adına rüsvayçılıqdır:** ”Təşkilatın açıq-aşkar saxtakarlığa yol verməsi həm heyrət, həm də təəssüf hissi doğurur. Hesabatı elə tərtib ediblər ki, Azərbaycan ərazilərinin 30 il Ermənistanın işğalı altında qalmasından xəbərsiz olan insanlar yazılan əsassız iddialara və yanlış rəqəmlərə inansınlar. Hesabatın Azərbaycanla bağlı hissəsi dünya ictimaiyyətinin çaşdırılmasına, qərəzli şəkildə yönləndirilməsinə xidmət edir. Azərbaycanı ”təcavüzkar” kimi qələmə vermək istəyirlər. Sənəddə Ermənistan silahlı qüvvələrinin 44 günlük müharibə zamanı cəbhə xəttindən uzaqda yerləşən şəhər və kəndlərimizdəki mülki obyektləri, yaşayış evlərini, məktəbləri atəşə tutmaları barədə bir kəlmə də qeyd edilməyib. Bu da sözügedən beynəlxalq təşkilatın iç üzünü göstərir. ”Human Rights Watch”ın hesabatı riyakarlığın əyani təsdiqidir. Təşkilat insanlığa yox, şərə xidmət edir”.

# Paşinyan indiki vəziyyətdə prezident olmaq istəməz

## Baş nazir yaxın ətrafından birinin namizədliyini irəli sürəcək



**Ermənistan Prezidenti Armen Sarkisyan istefa mətnində parlament üsul-idarəsinin neqativlərindən söz açıb. Sarkisyan bildirib ki, Ermənistan formaca parlamentli respublikadır, mahiyyətcə yox. Sabiq prezident iddia edib ki, onun məqsədi idarəetməni parlament respublikasından yarımprezident və ya prezident respublikasına keçirmək deyil. Sadəcə qarşılıqlı nəzarət və tarazlıq mexanizmlərinə əsaslanan dövlət sisteminin yaradılmasını təklif edir:**

”Bunsuz ciddi nailiyyətlər əldə etməkdən danışmaq çox çətindir. Çünki inkişaf və uğur yalnız proqnozlaşdırıla bilən, ahəngdar bir sistemdə əldə edilə bilər. Şadam ki, konstitusiyanın dəyişməsi ilə bağlı komissiya yaradılıb. Buna görə hökumətə minnətdaram. Ümid edirəm, nəhayət, konstitusiya dəyişikliyi baş tutacaq və növbəti prezident və prezident institutu sistemləşdirilmiş mühitdə daha balanslı işləyə biləcək”. Erməni mediasında tirajlanan fikirlərə görə, Baş nazir Nikol Paşinyan indiki imkanlarından bəhrələnməklə, Ermənistanda idarəetməni dəyişmək niyyətindədir. Paşinyan idarəetməni dəyişməklə, ilk növbədə hakimiyyətinin ömrünü uzatmaq və ölkəni yenidən Koçaryan-Sarkisyan cütlüyünün nəzarətinə keçməkdən sığortalamaq istəyir. Paşinyan hesab edir ki, keçmiş prezident Serj Sarkisyanın istəyi ilə 2015-ci ildə tələsik qəbul olunan konstitusiyada ciddi boşluqlar var. Misal üçün, hazırkı konstitusiyaya görə baş nazirin Konstitusiya Məhkəməsinin rəhbərini vəzifəsindən azad etmək hüququ yoxdur. Nikol Paşinyan 2018-ci ildə inqilab yolu ilə hakimiyyətə yiyələnsə də, Konstitusiya Məhkəməsinin tərkibini dəyişdirə bilməmişdi. Keçmiş hakimlər Sarkisyanın adamları olduğundan Paşinyana problemlər yaradırdılar. Məlumatlara görə, baş nazir konstitusiya islahatları ilə bağlı komissiyanın yaradılması tapşırığını verib. Konstitusiya Məhkəməsinin keçmiş aparat rəhbəri Edqar Qazaryan deyib ki, dəyişikliklər sülh sazişinin imzalanması və ratifikasiyası ilə bağlıdır.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə ”Şərq”ə bildirib ki, Sarkisyanın qəfil istefası Nikol Paşinyanın planlarını alt-üst etdi. Analitikin fikrincə, Sarkisyanın qəfil istefası Ermənistanda növbədənkənar prezident seçkisinin təyinatına səbəb olacaq:** ”Paşinyan özü səlahiyyətlərindən imtina edib prezident olmaq istəməz. O, yaxın ətrafından birinin namizədliyini irəli sürəcək. Əslində Armen Sarkisyan Paşinyanın planlarını pozdu. Çünki Paşinyan Konstitusiya islahatlarına razılıq verərək prezidentin səlahiyyətlərini yenidən artırmağı nəzərdə tuturdu. Ancaq bunu qısa müddətdə etmək mümkün deyil. Armen Sarkisyanın qəfil istefasından sonra Paşinyan konstitusiya islahatlarına maraq göstərməyə də bilər. Çünki özü prezident olmayacaqsa, başı üzərində güclü fiqurun səlahiyyət sahibi olması onun lehinə olmayacaq”.

**İsmayıl Qocayev**

# Paşinyan Türkiyə ilə münasibətlərdə qərarlıdır

## İki ölkə arasında yaxınlaşma irəlilədikcə kənar qüvvələrin əli zəifləyir



“Türkiyə-Ermənistan yaxınlaşmasına mane olmaq üçün təşəbbüslər olacaq”

İsmayıl Qocayev

**Türkiyə və Ermənistan xüsusi nümayəndələrinin növbəti görüşü Moskvada keçirilməyəcək. Bu barədə Türkiyənin NTV telekanalı məlumat yayıb. Xatırladaq ki, hər iki ölkə münasibətləri normallaşdırmaq üçün xüsusi nümayəndələr təyin ediblər.**

Xüsusi nümayəndələrin ilk görüşü yanvarın 14-də Moskvada keçirilib. Növbəti təmaslarla bağlı razılıq əldə olunsa da, görüşün harada baş tutacağı ilə bağlı məlumat verilməyib. Ermənistanın "Politekonomia" tədqiqat institutunun direktoru Andranik Tevanyan iddia edib ki, Türkiyənin bütün ilkin şərtləri təmin edilib. Onun sözlərinə görə, "Ermənistan-Türkiyə dialoqu ilkin şərtsizdir" ifadəsi Türkiyə və Azərbaycanın ermənilərə istehzasıdır: "Ankara bütün tələblərini İrəvana qəbul etdirib".

Rusiyanın "rosbalt.ru" nəşri isə Ermənistan-Türkiyə danışıqları kontekstində çoxlu ziddiyyətlərin olduğunu bildirib. "Niyə Rusiya "öz ziyanına olaraq" Ermənistan və Türkiyəni barışdırır?" başlıqlı məqalədə qeyd edib ki, son dərəcə vacib məsələlər üzrə danışıqlar aparan tərəflər arasında böyük keyfiyyət fərqi var: "Məsələ burasındadır ki, Ermənistanı parlament sədrinin heç bir diplomatik təcrübəsi olmayan 30 yaşlı müavini Ruben Rubinyan təmsil edir. Türkiyənin təmsilçisi isə xarici siyasət sahəsində təcrübəli şəxs, ölkənin ABŞ-dakı keçmiş səfiri olan Serdar Kılıçdır". Nəşr iddia edib ki, erməni tərəfi diasporanın və ictimaiyyətin qəzəbinə tuş gələrək danışıqlar prosesini dayandırmalı olacaq: "İlkin şərtlər irəli sürməmək tezisi xüsusi bir aldatmadır". Vurğulanır ki, Paşinyan hökuməti Türkiyə-Ermənistan danışıqları ilə bağlı daxili auditoriya ilə xarici ictimaiyyətə fərqli, bir-birinə zidd açıqlamalar verir. Yəni Ankara hökumətinin ilkin şərtləri İrəvanda qəbul olunsa da, etirazlardan ehtiyat edildiyi üçün gedişatla bağlı cəmiyyət məlumatlandırılmır.

“Ermənistanın Türkiyə və Azərbaycanla sülhə ehtiyacı var və bu prosesi üç ölkə özü reallaşdırmalıdır”

**Türkiyəli professor, "Qafqaz Strateji Araşdırmalar" Mərkəzinin rəhbəri Hasan Oktay "Şərq"ə açıqlamasında bildirib ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasına mane olmaq üçün təşəbbüslər olacaq.**

Professor xatırladıb ki, 2009-cu il oktyabrın 10-da Sürix protokolları imzalansa da, iki ölkə normallaşma istiqamətində yol qət edə bilmədi: "O zaman Azərbaycan torpaqları işğal altında idi. Ermənistanla sərhədləri bağlayan, diplomatik əlaqələri kəsən Ankara hökuməti bəyan etmişdi ki, ermənilər Azərbaycan torpaqlarını işğaldan azad etmədiyi təqdirdə, hər hansı münasibət qurmaq qeyri-mümkündür. Ona görə də rəsmi Bakı Sürix protokollarına sərt şəkildə qarşı çıxmışdı. Qarabağ münaqişəsi Ermənistan-Türkiyə əlaqələrinin düzəlməsini istəməyən Rusiyanın əlində ən böyük "kozur" idi. Ankara-İrəvan münasibətlərinə birbaşa qarşı çıxa bilməyən Moskva Azərbaycanın narazılığı üzərindən prosesi sabotə edirdi. 44 günlük müharibə regiondakı reallıqları kökündən dəyişdi. İndi sadəcə Türkiyə deyil, Azərbaycan da qonşu Ermənistanla normal münasibətləri bərpa etmək niyyətindədir. Əslində Ankara və Bakının İrəvana yönəlik birgə addımları, Ermənistanı regional əməkdaşlığa cəlb etmək təşəbbüsləri zəruridir. 10 noyabr üçtərəfli bəyanatından bir ildən çox zaman keçsə də, hələ də Zəngəzur dəhlizi və digər kommunikasiya xətləri ilə bağlı məsələlər müzakirə müstəvisindədir. Rusiyanın yanaşması və sülhməramlıların Qarabağdakı mövcudluğu Türkiyəni konkret addımlar atmağa sövq edir".

**H.Oktay vurğulayıb ki, Türkiyə-Ermənistan xüsusi nümayəndələri arasında baş tutan ilk görüş və prosesin ilkin şərtlər olmadan davam etdirilməsi kənar güclərin əlini zəiflətdi:** "Armen Sarkisyanın prezidentlik kürsüsünü tərk etməsinin səbəbləri arasında bu məsələnin də yer aldığı deyilir. İddia edilir ki, Sarkisyan Paşinyan hökumətinin Türkiyə ilə əməkdaşlıq sazişinə imza atmaq istəmir. Ermənistandakı bəzi siyasi dairələrin Ankara ilə yaxınlıqdan narahat olduğu bəllidir. Onlar hər vəchlə prosesə mane olmağa cəhd göstərirlər. Nikol Paşinyan Qərbin etimadını doğrultmaq üçün Türkiyə ilə əməkdaşlığa ehtiyac duyur. Bu açılım bir çox güc mərkəzlərini narahat etdiyi üçün həm Ermənistan daxilində, həm də xaricdə prosesi baltalamaq istəyənlər mövcuddur. Ermənistanın Türkiyə və Azərbaycanla sülhə ehtiyacı var və bu prosesi üç ölkə özü reallaşdırmalıdır".

**Yanvarın 24-də Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Medianın İnkişafı Agentliyi və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) birgə təşkil etdiyi "Müharibədən sonrakı reallıqlar və media" mövzusunda təlimlərin açılışı olub.**



# "Müharibədən sonrakı reallıqlar və media" mövzusunda təlimlərin açılışı olub

Qeyd olunub ki, belə təlimlərin əsas məqsədi Azərbaycandakı media nümayəndələrinin müharibədən sonrakı dövrdəki fəaliyyətlərinə töhfə verməkdir.

Təlimlərin açılış mərasimində Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev, Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva və başqaları iştirak ediblər.

"Azərbaycanın müharibədən sonrakı dövrdə mövqeyinin beynəlxalq mediaya düzgün çatdırılması dili və terminologiyanın dəyişməsi" , "Media nümayəndələrinin işğaldan azad olunmuş bölgələrdə davranışı" və "Xarici mediada Azərbaycan həqiqətlərinin çatdırılmasına dair məqalələrin yazılması" mövzularında keçirilən təlimlər müvafiq istiqamətlərdə nəzərə alınmalı həssas məqamları və digər məsələləri əhatə edəcək.

Təlimlərin növbəti 2 gün ərzində də davam etdirilməsi planlaşdırılıb.

Sənan İsmayıl

# Şuşaya bilet daha çox satılıb

## Çünki Qarabağın digər bölgələrini ermənilər xarabalığa çeviriblər



**Dünəndən Bakı-Şuşa-Bakı müntəzəm avtobus marşrutu istifadəyə verilib. Marşrut üzrə 400-ə yaxın bilet satılıb. Dünən Bakı-Şuşa reysi ilə hərəkət edən ilk sərnişin avtobusu saat 06:30-da Bakıdan yola çıxan ilk sərnişin avtobusu 13:00 radələrində şəhərə çatıb. 44 sərnişin gətirən avtobus keçmiş avtovağzal ərazisində qarşılanıb.**

Qeyd edək ki, Bakı-Şuşa-Bakı avtobus reysi həftədə iki dəfə həyata keçiriləcək. Bakıdan Şuşaya avtobus bileti 10 manat 40 qəpikdir. Marşrut xətlərinə bilet satışı onlayn qaydada "Yolumuz Qarabağa" portalı vasitəsilə həyata keçirilir.

**Avtobus reyslərinin təşkili ilə bağlı "Şərq"ə açıqlama verən millət vəkili Aqil Abbas bildirib ki, hər kəsin ildə bir dəfə səfər edə bilməsi limitinin mövcudluğuna qarşıdır:** "Səfalı torpaq Şuşaya avtobus marşrutlarının təmin edilməyini müsbət dəyərləndirirəm. İnsanlar gedib səfalı torpaqları görəcəklər. Lakin hər kəsin ildə bir dəfə getməsilə bağlı limit qoyulmağına qəti qarşıyam. Bu məhdudiyyət aradan qaldırılmalıdır. Prezident İlham Əliyev deyib ki, gələn il Şuşa sakinləri yurdlarında məskunlaşmağa başlayacaqlar. Onda bu necə nizamlanacaq?".

Deputatın fikrincə, Şuşaya daha çox biletin satılmasına səbəb Qarabağın digər bölgələrinin xarabalığa çevrilməsidir: "Ağdama və digər yerlərə nisbətən Şuşaya bilet çox satılıb. Çünki Azərbaycanın mədəniyyət paytaxtında həyat var. Şuşa müəyyən dağıntılara məruz qalsa da, özünü qorumağı bacarıb. Orada təmir-tikinti gedir. Ona görə də insanlar Şuşanı görmək istəyirlər".

Xanlar ƏLİBƏY

**NATO-Rusiya gərginliyi azalmaq əvəzinə daha da artmaqdadır. Cenevrə, Brüssel və Vyanada baş tutan görüşlər də buzları əritməyə kifayət etmədi. Rusiyanın Şərqi Avropa ölkələri ilə bağlı konkret şərt irəli sürməsi və Qərbin bunları rədd etməsi vəziyyəti bir qədər də kritikləşdirdi.**



# Mənasız qürur...

## Kreml Ukrayna ilə savaşın Rusiya üçün dağıdıcı nəticələrə səbəb olacağını anlamır

Moskva postsovet məkanında Rusiyanın təsirini gücləndirmək üçün yeni addımlar atır. İsrarla NATO-nun Mərkəzi və Şərqi Avropa ölkələrində hərbi fəaliyyətini dayandıracağına dair yazılı təminat tələb edir. Vaşinqtonu hədələyən Rusiya Ukraynanın NATO-ya üzvlüyünə "milli təhlükəsizlik" məsələsi kimi baxdığını deyir. Kuba və Venesuelaya qoşun yerləşdirməsindən danışır. Qərb mediası Putinin hərəkətlərini böyük imperiyanı yenidən qurmaq cəhdi kimi qiymətləndirir. Lakin ruslarda belə bir fikir var ki, Qərb və Amerika sovetlərin süqutu zamanı verdikləri vədləri yerinə yetirməyiblər. Hər iki tərəf müharibə riskini gözardı etmir. Elə bu səbəbdən ABŞ öz diplomatlarına və onların ailə üzvlərinə Ukraynanı tərk etmək icazəsi verib. Dövlət Departamenti əvvəlcə bunu təkzib etsə də, sonradan təsdiqləmək məcburiyyətində qaldı. Ağ Evin ardından Böyük Britaniya da diplomatlarını Ukraynadan çıxarmaq qərarı aldı: "Rusiyadan gələn təhlükəyə cavab olaraq bəzi səfirlik əməkdaşları və onların ailə üzvləri Kiyevdən çıxarılır. Britaniya səfirliyi isə fəaliyyətinə davam edəcək". Almaniya kansleri Olaf Şolts vəziyyətin çox ciddi olduğunu söyləyib. Onun sözlərinə görə, Rusiyanın Ukrayna sərhədində yüz min əsgər və xeyli sayda hərbi texnikasının cəmləşməsinə göz yummaq olmaz: "Bunun heç bir mənti izahı yoxdur. Bu, Avropanın sülh və təhlükəsizliyinə təhdiddir".

“Müharibə başlasa ilk zərbəni sadə rus vətəndaşları dadacaq. Bu savaş ruslar üçün milli fəlakət və Rusiya dövlətçiliyinin dağılması ilə nəticələnə bilər”

NATO-nun da Şərqi Avropaya əlavə qoşun göndərdiyi açıqlanıb. Qeyd olunub ki, bloka üzv dövlətlər Şərqi Avropa istiqamətində əlavə hərbi gəmi və təyyarə göndəriblər: "Rusiyanın Ukrayna ilə sərhəddə hərbi mövcudluğunu artırması fonunda müdafiəni gücləndiririk".

ABŞ da hərbi yardım çərçivəsində Ukraynaya ikinci partiya olaraq 80 tonluq silah-sursat göndərib. Ukrayna Müdafiə naziri Aleksey Reznikov Kiyevə silah-sursat yardımının davam edəcəyini bildirib.

**Tərəflər arasında artan gərginliyi "Şərq"ə dəyərləndirən politoloq Azər Rəşidoğlu vurğulayıb ki, Rusiya özünün yeni tarixində heç vaxt müharibəyə bu qədər yaxın olmayıb. Analitikin fikrincə, prezident Vladimir Putinin Rusiyası Ukrayna, Qazaxıstan və MDB ölkələrinin müstəqilliyini aşağılayır:** "Kreml reallığı itirir. SSRİnin dağılmasından 30 il sonra Moskva keçmiş sovet respublikalarına münasibətdə öz xüsusi hüquqlarının olduğunu bəyan edir. Onlara məhdud suverenlik doktrinasını tətbiq etməyə çalışır. Rusiya savaş baltalarını yelləyir. Postsovet məkanının parçalanmasının və Rusiyaya qarşı inamsızlığın əsas səbəbi Putindir. Putin Stalin siyasətini təkrarlamaq istəyir. Ukraynaya müharibə bəyanatı ilə Rusiya dünyanı şantaj edir".

**A.Rəşidoğlu əlavə edib ki, Kreml Ukrayna ilə savaşın Rusiya üçün dağıdıcı nəticələrə səbəb olacağını anlamır:** "Müharibə başlasa ilk zərbəni sadə rus vətəndaşları dadacaq. Bu savaş ruslar üçün milli fəlakət və Rusiya dövlətçiliyinin dağılması ilə nəticələnə bilər. Müharibəyə hazırlıq təkcə Rusiyanın xarici siyasətindəki çıxılmaz vəziyyətin nəticəsi deyil, həm də daxili siyasi kursun iflasıdır. Rusiya Dövlət Duması səviyyəsində Ukraynanın şərqindəki ərazilərin ilhaqını tələb edir. Mənasız qürur Putinin Rusiyanın mövcud siyasi vəziyyətini dərk etməyə imkan vermir. Rusiya siyasətində millətçi və militarist meyillərin güclənməsi ağır fəsadlar verə bilər. Bunu Rusiyada dərk edənlər az deyil. Putin yalnız NATO-ya qarşı deyil, daxili ictimai rəyə qarşı da duruş gətirməli olacaq. Bu isə asan deyil. Ümid edirəm, Kreml real vəziyyəti dəyərləndirə biləcək".

İsmayıl Qocayev

# Diplomatik təmaslar nəticə verməsə, qlobal səhnəyə müharibə senarisi gələcək

## Müharibə başlasa, Rusiyaya qarşı tətbiq olunacaq sanksiyalar Çini də hədəf taxtasına gətirəcək

İsmayıl Qocayev



**"Ukrayna böhranının qlobal tərəflərinin strateji baxışının mayasını o təşkil edir ki, bu münaqişədən maksimum qazanclı çıxmaq üçün diplomatik tərzi sərtləşdirsinlər".**

**Bu barədə "Şərq"ə siyasi şərhçi Aqşin Kərimov deyib. Ekspert bildirib ki, diplomatik təmaslar nəticə verməsə, qlobal səhnəyə müharibə senarisi gələcək:**

"Amma qarışıq və həssas situasiya döyüşlərin hansı perspektiv açacağını da sual altına qoyur. Məqsəd və vasitələri, strateji hədəfləri riyazi dəqiqliklə ölçüb-biçmək çətindir, məsələni qəlizləşdirən isə səhnə arxasındakıların "pıçıltıları"dır. İndi Ukrayna ətrafında yaranan gərginlik bir-birinin qulağına pıçıldayan strateqlərin oyun nişanələrini siyasi üfüqlərdə müşahidə edilə biləcək səviyyədə nümayiş etdirir. Ukrayna böhranı həm də digər gücün zəifləməsinə yönələn cəhdlər konsepsiyasıdır. Ukrayna münaqişəsindən bəhs edərkən Çin amilinə toxunmamaq oyun qaydalarının qat-qat dərində yatan mahiyyətini gün işığına çıxarmayacaq".

Analitikə görə, Çin həm ortamüddətli, həm də uzunmüddətli prioritetlərini təyin edən oyunçudur: "Ancaq nədənsə, onun prioritetlərinin mərkəzində dayanan məzmunu oxumaq digər qlobal oyunçular üçün çətindir. Çinin strateji vizyonu "Bir kəmər, bir yol" təşəbbüsündə öz əksini tapır, Pekin Ukraynanı bu layihədə əsas tranzit potensialına malik ölkə kimi dəyərləndirir. Yeni Çin Avropa ilə iqtisadi əlaqələrinin həcmini genişlətmək üçün Ukraynadan yararlanmaq istəyir, bununla da yaranacaq yeni alətlərlə ekspansiyasını genişləndirməyi hədəfləyir. Çinin iqtisadi mexanizmlərlə ekspansiyasının qarşısına Qərbdə iki əsas güc çıxır - Britaniya və ABŞ. Ukrayna münaqişəsinin hərbi eskalasiya həddinə çatması, Qərbin strateji planlarına daxildir, çünki bu müharibə digər gücləri çökdürmək üçün sanksiya dalğasının yaranmasına səbəb verər. Çin isə "mehriban düşmən" münasibətində olduğu Rusiyaya Ukrayna məsələsində "yaşıl işıq" yandırır, çünki Pekində bu fikir hakimdir ki, Rusiya Ukraynanı işğal etsə, bu, Çin üçün əlavə imkanlar açacaq".

**A.Kərimov qeyd edib ki, Çin hazırkı böhranın ABŞ və NATO-nun genişlənmək aləti üçün əsaslar yaradan ideyalardan qaynaqlandığını bilir və atılan "daşların" öz bostanına da düşəcəyindən qorxur:** "Bu qorxunu dərinləşdirən digər amil isə böyük planın bir hissəsi kimi görünən Tayvan mövzusunda Qərbin Çini öz orbitinə sıxışdırmaq cəhdləridir. Buna görə də Rusiya-Çin "müttəfiqliyi" belə situasiyada "müqəddəs akta" çevrilir. Ukrayna indi böyük bir kitabın yalnız bir neçə səhifəsini əhatə edir, sonrakı səhifələrin yazılması isə Qərb-Rusiya-Çin qarşıdurmasının hansı səviyyədə qurulacağından asılıdır. Bu fikirlərlə yola çıxsaq, hədəflərə dair aşağıdakı nəticələri çıxara bilərik. Birincisi, Ukraynada müharibə başlasa, Rusiyaya qarşı tətbiq olunacaq sanksiyalar Çini də hədəf taxtasına gətirəcək. Bu, Çini öz tərəzisinin gözünü Qərbə tərəf əyməsi üçün təzyiq vasitəsidir. İkincisi isə Çinin tutacağı mövqe yeni eskalasiya yollarını formalaşdıracaq və iqtisadi-siyasi təcridin miqyasını müəyyənləşdirəcək".

# Paşinyan prezidenti devirməyi bacardı

## Armenin gedişi Nikolun daxildə siyasi gücünü daha da artıracaq



## Amma bu son deyil, Ermənistanda daha böyük siyasi təlatümlər gözlənilir

İsmayıl Qocayev

**Ermənistan Prezidenti Armen Sarkisyan istefa verib. Erməni cəmiyyəti müharibədən sonra yüksək rütbəli məmurların istefasına, işdən qovulmalarına, o cümlədən həbslərinə alışmış olsa da, prezidentin qəfil gedişindən şoka düşüblər.**

İctimaiyyətin narahatlığına səbəb Sarkisyanın gözlənilməz qərarından daha çox onun istefa mətnində toxunduğu məqamlar olub. Armen Sarkisyan daxili və xarici siyasətdəki proseslərə təsir etmək gücündə olmadığını bildirib. O, uzun müddət düşünəndən sonra istefa qərarına gəldiyini deyib: ”Bu, qətiyyən emosional qərar deyil və müəyyən məntiqdən irəli gəlir. Prezidentin əlində ölkə və millət üçün bu çətin dövrdə daxili və xarici siyasətin fundamental proseslərə təsir etmək üçün lazımi alətlər yoxdur. Niyə prezident hazırkı ümumxalq krizisində siyasi hadisələrə müdaxilə edə bilmir? Səbəb yenə aydındır, istənilən dövlət məmuru Konstitusiyaya əsaslanmalıdır. Bizim əsas problemlərimizin səbəbi məhz hazırkı qanunumuzdur. Bizdə paradoksal vəziyyət yaranıb. Prezident dövlətin qarantı olduğu halda faktiki olaraq heç bir real vasitəyə sahib deyil. Sülh və müharibə ilə bağlı məsələlərə müdaxilə edə, əlverişli saymadığı qanuna veto qoya bilmir. Müxtəlif siyasi qruplar tərəfindən birbaşa təhlükə kimi qəbul edilir”. Armen Sarkisyan 2018-ci il aprelin 9-da Ermənistan prezidenti seçilmişdi. Məlumat üçün bildirək ki, Ermənistan konstitusiyasına görə, respublika prezidenti istefaya getdikdə səlahiyyətlərini Milli Məclisin sədri həyata keçirir. O səbəbdən Ermənistana parlament sədri Alen Simonyan rəhbərlik edəcək. Növbədənkənar prezident seçkiləri isə 35 gündən gec olmayaraq keçirilməlidir. Ermənistan Prezidenti Armen Sarkisyan istefasını bir həftə müddətində geri götürə bilər. Parlamentin spikeri Alen Simonyan Prezident Armen Sarkisyanın bir həftə vaxtı olduğunu xatırladıb. Əgər bir həftə ərzində istefa ərizəsini parlamentdən geri götürməsə, onun istefası qəbul edilmiş sayılacaq. İstefa qərarından sonra Ermənistanda prezidentliyə mümkün namizədlərin adları da açıqlanıb. ”İşıqlı Ermənistan” partiyasının sədri Edmon Marukyan və ölkənin hazırkı Xarici işlər naziri Ararat Mirzoyanın prezidentliyə namizəd ola biləcəkləri iddia edilir.

”Ermənistan” fraksiyasının deputatı Artur Qazinyan vurğulayıb ki, Armen Sarkisyanın prezidentlikdən getməsinin geosiyasi anlamı var. Onun sözlərinə görə, istefanın niyə indi və bazar axşamı elan edildiyi aydın deyil: ”Bir neçə gün əvvəl Sarkisyan günəş stansiyası üçün BƏƏ-dən maliyyə aldı və bildirdi ki, bu, hələ başlanğıcdır. Hadisələr çox sürətlə inkişaf edir və istefanın aşkar geosiyasi çalarları var”. Deputatın fikrincə, yalnız bir məqamla mübahisə etmək olmaz - Ermənistanda siyasi dəyişikliklər baş verib və sonrakı proseslər hakimiyyətin tamamilə dəyişməsinə gətirib çıxara bilər: ”Ayıq və tədbirli olmaq lazımdır. Burda Ermənistan dövlətçiliyinin mövcudluğu məsələsi var”.

Konstitusiya Məhkəməsinin keçmiş Aparat rəhbəri Edqar Kazaryan keçmiş prezidentin Qərbə yaxınlığı ilə seçildiyini söyləyib: ”Armen Sarkisyan erməni xalqının tarixində Kremlin divarları arxasında qalan və ora daxil olmayan yeganə Ermənistan prezidenti oldu. O, işlədiyi 4 il ərzində heç vaxt Rusiya prezidenti tərəfindən rəsmi şəkildə qəbul edilmədi. Hətta 2021-ci il mayın 9-da Qızıl meydanda Böyük Vətən müharibəsinin Qələbə gününə həsr edilən parada belə çağırılmadı”.

Politoloq Stepan Danielyan da müəmmalı və maraqlı sualların qaldığını deyib: ”Ermənistanda ciddi və sistemli diskussiyalar aparılmır. Prezident niyə məhz indi istefa verdi? Onun razı olmadığı və prezident kimi məsuliyyəti üzərinə götürmək istəmədiyi hansı hadisələr gözlənilir? Hansı mümkün sənəd hazırlanırdı ki, Sarkisyan o kağızdakı mətnin altında imzasını görmək istəmir? Hər halda bu istefa ciddi qəbul edilməlidir” .

Erməni siyasi icmalçı Ambarsum Qabanyan isə diqqətə çatdırıb ki, Ermənistan hökumətinin kuluarlarında KTMT tələb etdiyi təqdirdə, rəsmi İrəvanın Ukraynaya hərbi kontingent göndərə biləcəyi haqqında söhbətlər səngimir. Ekspertin sözlərinə görə, əgər Rusiya Ukraynaya qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlamağa qərar verərsə, KTMT ölkələri prosesə müdaxilə etməyə məcbur olacaq. Bunu bilən Ermənistan hökuməti nə edəcəyini bilmir. Siçovullar kimi gizlənməyə çalışırlar. Ölkə prezidenti ”günahdan” uzaqda qalmaq qərarı verdi. Onun vəzifəsinə Moskvanın əmrlərinə tabe olmaqdan qorxmayan şəxs gələcək”.

**Armen Sarkisyanın istefası müxtəlif aspektlərdən qiymətlənidirilir. Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə açıqlamasında bildirib ki, Armen-Nikol mübarizəsində ikinci qalib gəldi. Analitikin qənaətincə, 44 günlük müharibədən sonra Sarkisyan xüsusilə aktivləşmişdi və Nikol Paşinyana bəzi qərarların qəbul edilməsində problemlər yaradırdı:** ”Qasparyan qiyamı zamanı bu, açıq müstəvidə özünü göstərdi. Paşinyan Armeni ”yola gətirmək” üçün prezident səlahiyyətlərinin artırılmasını təklif etmişdi. Proseslərin inkişafı göstərdi ki, qapalı görüşdə tərəflər razılaşdılar. Amma Nikol böhranı həll etdikdən, xüsusilə də parlament seçkilərində qalib gəldikdən və gücləndikdən sonra ”vədinə əməl” etmədi. Paşinyan konstitusiya islahatlarına hazırlaşır və yeni dəyişikliklərdə prezident səlahiyyətlərinin artırılması da nəzərdə tutulur. Lakin o, bunu Armen Sarkisyan üçün yox, öz gələcəyinə hesablayıb: Nikolun hakimiyyətini ”geniş səlahiyyətə malik prezident” kimi davam etdirmək planı var. Sarkisyanın səlahiyyət müddətinin (2025-ci il) başa çatmasına qədər gözləmək zaman alacaqdı. Görünür, Paşinyan prezidenti istefaya məcbur edib. Bu fikri Sarkisyanın müraciətindəki bir qeyd xüsusilə gücləndirir. Armen bildirir ki, ”reallıq budur ki, dövlət başçısı, bəzən ailəsi müxtəlif siyasi qrupların hədəfində olur”. İstisna deyil ki, Armenə istefası üçün ailəsi üzərindən də təzyiq edilib. Sarkisyan istefa müraciətində bildirir ki, prezident səlahiyyətləri faktiki nə daxili, nə də xarici məsələlərdə həlledici qərar verməyə imkan vermir. Armen bununla müharibədəki məğlubiyyətə və hakimiyyətin siyasətinə görə məsuliyyət daşımadığını da deməyə, gedərkən ”təmizə çıxmağa” çalışır”.

**A.Nərimanlıya görə, Sarkisyan ”niyə indi istefaya getdi” sualının iki tərəfi var:** ”Birinci tərəfi Armenin son dövrlər atdığı addımlar və Paşinyanın bundan narahat olmasıdır. Sarkisyan xarici səfərlərini intensivləşdirmişdi. Xüsusilə ərəb ölkələri ilə münasibətlərin qurulmasında, ölkəyə investisiya cəlb edilməsində müəyyən nəticələr əldə edirdi. Paşinyan prezidenti indi göndərə bilməsəydi, sonra daha çətin olardı. Armenin prezident postunda qalması hakimiyyətin konstitusiya islahatlarını sürətləndirmək istəyi ilə paradoks təşkil edirdi. İkincisi isə Armen Sarkisyanın hakimiyyətin yeni qərarlarının məsuliyyətini bölüşmək istəməməsidir. O, müraciətində ”radikal siyasi dəyişikliklərə”, gözlənilən ”problemlərə” işarə vurur. Mümkündür ki, bununla Paşinyan hakimiyyətinin atacağı addımlara ”ortaq olmaq” istəmədiyinin mesajını verir. Armenin gedişi Paşinyanın daxildə siyasi gücünü daha da artıracaq. Hərçənd, diasporun ona qarşı mübarizəsi daha da güclənə bilər. Xüsusilə Ankara-İrəvan münasibətlərinin normallaşması və qondarma ”erməni soyqırımı” məsələsinin arxa plana keçməsi prosesi sürətləndikcə, Paşinyana təzyiqlər də artacaq”.

**Politoloq İlyas Hüseynov isə bildirib ki, Armen Sarkisyan erməni siyasətçilər arasında ən ağıllı, nüfuzlu və təhlükəli siyasətçi idi. Ekspert söyləyib ki, Sarkisyanın Böyük Britaniyada, Vatikanda, ABŞ-da və xüsusilə də ərəb dünyasında çox geniş əlaqələri var:** ”Sarkisyanı istefaya iki səbəb vadar edə bilər. Fransaya meyilli komanda Böyük Britaniyaya bağlılığı ilə seçilən təmsilçisini uzaqlaşdırmaq qərarına gəlib. Sarkisyan xarici dostlarından dəstək alıb, indi Nikol Paşinyanın yerinə iddialı olacaq. Ermənistan konstitusiyasına əsasən, yeni prezident seçilənə qədər onun səlahiyyətlərini Ermənistan Milli Assambleyasının sədri - Alen Simonyan həyata keçirəcək. Yunanıstanda istirahətləri ilə məşhurlaşan A.Simonyanın Ermənistanın prezidenti postunda oturması Paşinyanın maraqları daxilindədir. Böyük ehtimalla Simonyan elə Ermənistanın 5-ci prezidenti olacaq. Nəzərə alaq ki, Simonyan ABŞ səfərindən qayıtdıqdan sonra prezident istefa verdi. Növbədənkənar prezident seçkiləri fevralın ortalarında keçirilməlidir. Yeni prezidenti seçmək üçün minimum 80 səs lazımdır. Paşinyanın parlamentdə 79 yeri var. Parlamentdəki ”Qarabağ klanı” arasında ”paşinyançı” kim olacaq? Əgər seçkilərin birinci turunda yeni prezidentin adı məlum olmasa, ikinci turda deputatların 65 səsi kifayət edəcək. Onda Paşinyan böyük ehtimalla öz marionet namizədini prezident kürsüsünə oturdacaq”.

# "Mən yenə fikrimdə qalıram"

## Aqil Abbas: “Tağıyevin heykəlinə zərər verənlərə heç olmasa, 15 sutkalıq cəza verilməliydi”

**”Yəqin ki, layiqli cəzalarını alacaqlar. Bunu istintaq müəyyənləşdirəcək. Amma biz təklif edirik ki, həbsdə olduqları müddətdə onları hər gün səhər bu heykəlin yanına gətirməli, heykələ qulluq eləməlidilər. Camaat da onları görməlidi və bu da digərlərinə görk olmalıdır”.**

Bu fikirlər millət vəkili, yazıçı-publisist Aqil Abbasa məxsusdur və Hacı Zeynalabdin Tağıyevin paytaxtdakı heykəlinin açılışından cəmi bir neçə saat sonra ona zərər verənlər haqqında ”hökm”dür. Amma hörmətli millət vəkilinin təklifi reallaşmadı. Heykələ zərər verənlərin layiqli cəza alıb-almamaları barədə də nülahizə yürütmək çətindir. Çünki bizim mövqeyimiz subyektiv hesab edilə bilər, hərçənd Hacı Zeynalabdin Tağıyev ümummilli sərvətdir, fərdiliyə, subyektivizmə aidiyyəti yoxdur. Yenə də. Polis doğru bildiyi qərarı verib. Hacı Zeynalabdin Tağıyevin Bakıdakı heykəlini zədələməkdə təqsirləndirilən 1991-ci il təvəllüdlü Vüqar Tağızadə və 1996-cı il təvəllüdlü Allahverdi Məmmədli barəsində polis nəzarəti qətimkan tədbiri seçilib. Hər iki şəxs sərbəst buraxılıb və polisinin nəzarətinə verilib. Halbuki, böyük səs-küyə səbəb olan hadisədən dərhal sonra Səbail Rayon Polis İdarəsi əməkdaşlarının keçirdiyi operativ tədbirlər nəticəsində hər iki şəxs, necə deyərlər, ”qıs-qıvraq” yaxalanmışdı. Və faktla bağlı konkret maddələrlə cinayət işi açılmışdı. Məlumatda bildirilirdi ki, qeyd olunan hərəkətlərdə xuliqanlıq, tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama əməlinin tərkib əlamətləri olduğundan fakta görə Səbail RPİ İstintaq şöbəsində Cinayət Məcəlləsinin 221-cü (Xuliqanlıq) və 246-cı (Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama) maddələri ilə cinayət işi başlanılıb. Təbii ki, heykəltəraş da hadisə yerinə dəvət olundu və heykəl bərpa edildi, abidənin üzərindən qoparılan element yerinə qoyuldu.

**Xuliqanlarsa, sərbəst buraxıldı (!). Bəlkə də Hacıya uyğun ağayana davranışdır. Ola bilər. Bəs Aqil Abbas indi nə düşünür? ”Şərq”ə açıqlamasında millət vəkili əvvəlki fikrində qaldığını dedi:**



- Mən o fikrimdə qalıram ki, bu adamlara heç olmasa, 15 sutkalıq cəza verilməliydi və bu cəza da heykələ qulluq etmək olmalıydı. Camaat da görməliydi ki, heykələ hörmətsizlik edənlərin aqibəti necə olur. Amma görünür, istintaq aparılıb və məlum olub ki, bu, qəsdən törədilən əməl deyil. O insanlar bunu beyinsizliklərindən, düşüklüklərindən ediblər. Cəza verməklə də islah etmək olmur. Ona görə də polis nəzarəti altında sərbəst buraxılma qərarı verilib.

**Məlahət Rzayeva**



# Bütün qərarlar xalqın rifahına hesablanıb

## 2021-ci il vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi baxımından uğurlu bir il oldu

İsmayıl Qocayev

**Prezident İlham Əliyevin rəhbərliyi ilə 2021-ci ildə həyata keçirilən siyasət nəticəsində ölkəmizdə sosial-iqtisadi inkişaf meyilləri davam etdirilib. Pandemiyanın milli iqtisadiyyata mənfi təsirləri minimuma endirilib.**

Reallıq budur ki, bütövlükdə 2021-ci ildə ölkədə makroiqtisadi və maliyyə sabitliyi təmin olunub. Ümumi daxili məhsul 5,6 faiz artıb, qeyri-neft sektoru üzrə artım 7,2 faiz olub. Ölkənin strateji valyuta ehtiyatları 2,5 mlrd. dollara yaxın artaraq 53,2 mlrd. dolları ötüb və xarici dövlət borcunu 6 dəfədən çox üstələyib. Buna baxmayaraq, orta illik inflyasiya 6,7 faiz, o cümlədən, ərzaq inflyasiyası 8,1 faiz təşkil edib. Qlobal iqtisadiyyata inteqrasiya etmiş Azərbaycanda da yerli istehsalı az olan və ya idxalın üstünlük təşkil etdiyi məhsullar üzrə qiymət artımları müşahidə olunub. 2021-ci ildə dünya ərzaq qiymətləri son 10 ilin ən yüksək səviyyəsinə çatıb. Lakin qlobal təhdidlərə rəğmən, bütövlükdə 2021-ci ildə ölkədə makroiqtisadi və maliyyə sabitliyi təmin olunub.

**Millət vəkili Cavid Osmanov ”Şərq”ə bildirib ki, Prezident İlham Əliyevin siyasətinin mərkəzində hər zaman vətəndaş rifahının təminatı dayanıb.** Deputatın sözlərinə görə, 2021-ci il vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi baxımından uğurlu bir il oldu: ”Vətəndaşların, xüsusilə də aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Prezidentin 2021-ci ildə imzaladığı fərman və sərəncamlar bu sahədə də yeni başlanğıcı hesab edilə bilər. Təkcə 2021-ci ilin dekabr ayında imzalanan fərman və sərəncamlar sosial islahatların 2,1 milyon insanın rifahına dəstək olan və illik əlavə 1,5 milyard manat vəsait ayrılmasını nəzərdə tutan yeni mərhələsini açdı. Minimum aylıq əməkhaqqı artırılaraq 250 manatdan 300 manata çatdırıldı.

Bu artım dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə 400 min nəfər olmaqla, 800 min işçini əhatə edir. Ümumilikdə son üç ildə minimum aylıq əməkhaqqı 2,3 dəfə artırılaraq 130 manatdan 300 manata çatdırılıb. Bununla yanaşı 2021-ci ildə təqaüdlərin, pensiyaların, ünvanlı sosial yardımların və digər ödənişlərin artırılması istiqamətində vacib addımlar atıldı. Sosial təminat sisteminin mühüm komponenti olan pensiyalarda artım 2021-ci ildə də davam etdi. Ümumilikdə son üç ildə pensiyaların minimum məbləğində iki dəfəyə yaxın, orta aylıq məbləğində 60 faiz artım baş verib”.

# “Akademiya rəhbəri məişət səviyyəsində intriqalarla məşğuldur"

## Boran Əziz: “Bu, Ramiz Mehdiyevin elm xadimlərinə qarşı soyqırımı siyasətidir”



**Yanvarın 21-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Tarix İnstitutunun baş direktoru, professor Kərim Şükürov vəzifəsindən istefa verməsi ilə bağlı bu qurum rəhbərliyinə rəsmi ərizə ilə müraciət edib. Bununla bağlı AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin sədrliyi və vitse-prezidentlərin iştirakı ilə müşavirə keçirilib.**

Müşavirədə məsələ müzakirə edilib və K.Şükürovun istefa ərizəsi qəbul olunmayıb. Qərara alınıb ki, professor Tarix İnstitutunun baş direktoru vəzifəsində fəaliyyətini davam etdirsin və mövcud nöqsanları özü aradan qaldırsın. Ötən günlərdə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Nəzəri dilçilik şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor İdris Abbasov K.Şükürovun istefa səbəbindən mediaya danışıb. O söyləyib ki, professor məhz mənəvi-psixoloji təzyiqə və haqsızlığa dözməyədiyi üçün qurumdan istefa vermək qərarına gəlib.

**AMEA-da baş verən son hadisələrdən ”Şərq”ə danışan tarixçi-alim Boran Əziz bildirib ki, Kərim Şükürovu olduqca vicdanlı, prinsipial, milli-mənəvi dəyərlərə bağlı bir tarixçi kimi tanıyır:** ”Azərbaycan tarixşünaslığında böyük bir boşluq var idi. Əsərlərinə əsasən deyə bilərəm ki, o, bu boşluğun xeyli hissəsini özünün zəhməti ilə aradan qaldırıb. Təəssüflə deyirəm ki, Azərbaycan tarixində olan bir sıra problemlərə müstəqilliyimizdən xeyli müddət keçməsinə rəğmən yenə də marksist, leninçi ideologiyası, kommunizm prinsipləri ilə yanaşılır. K.Şükürov keçən yüz ilin 90-cı illərdə çap etdiyi iki cildlik Azərbaycan tarixi vəsaitində tariximizin nəzəri metodoloji məsələlərinə işıq salmağa çalışıb. Bu baxımdan onun kimi adamın AMEA-nın Tarix İnstitutunda fəaliyyətə başlaması bizdə Azərbaycan tarixində olan bir sıra məsələlərin yenidən işlənəcəyinə, onların müstəqillik dövrünün prinsiplərinə uyğun olaraq insanlara çatdırılacağına inam yaradıb”.

B.Əziz kadrların AMEA-ya illərlə qohumluq, dostluq prinsipləri ilə təyin olduğu üçün bir sıra problemləri həll etməyin çətin olduğunu vurğulayıb:

”Kərim Şükürov kimi bir şəxsin isə bu prinsiplərdən kənar yalnız öz elmi səriştəsi, bacarığı, savadına görə vəzifəyə təyin edilməsi görünür ki, AMEA rəhbərliyini də qıcıqlandırıb. Vaxtilə Azərbaycanın qədim, orta əsrlər, müasir və s. tarixi dövrü ilə bağlı olduqca zəruri olan problemlərin aradan qaldırılması üçün istedadlı gənc kadrları tapmaq lazım idi. K.Şükürov belə kadrdır. Akademiya rəhbəri Tarix İnstitutunun baş direktorunu çağırıb onunla hansı problemləri həll etmək istədiyinə dair müzakirələr aparmaq əvəzinə məişət səviyyəsində intriqalarla məşğul olmağa başlayıb”.

*Tarixçi-alimin fikrincə, bu, Ramiz Mehdiyevin elm xadimlərinə qarşı soyqırımı siyasətidir:* ”Sanki R.Mehdiyev özünü Azərbaycan Kommunist Partiyasının rəhbəri, Tarix İnstitutunun direktorunu isə Rayon Partiya Komitəsinin işçisi hesab edir. Tabeliyində olan adamları çağıraraq orda elmi iş mühitinə uyğun, işgüzar müzakirə etmək əvəzinə onlarla mətbuat vasitəsilə əlaqə saxlayır. Bu, görünməmiş bir işdir. Hər halda Azərbaycan elmini düşünən, onun problemlərinin nə qədər ağır, çətin olduğunu bilən insanlar üçün professorun istefa xəbəri olduqca üzücü idi”.

**B.Əziz diqqətə çatdırıb ki, AMEA Azərbaycan ziyalılarına, vətəndaşlarına heç cür laqeyd qala bilməz:** ”Çünki bu qurum sizin, mənim, eləcə də digərlərinin əmək haqqından toplanan vəsait hesabına yığılan büdcədən maliyyələşir. Nəyə görə bizim büdcəmiz hesabına fəaliyyət göstərən AMEA anti-milli, antixalq mövqeli konsepsiyaları yenidən tirajlamalıdır?! Bu, yolverilməzdir. Çox arzu edərdim ki, müvafiq orqanlar bu işə qarışıb AMEA rəhbərliyinin özbaşınalıqlarına imkan verməsin. Biz gözləyirik və belə olcağına da inanırıq”.

**Günəş Mərd**

# Qarabağa gizli səfərlər...



## Zaxarova öz dili ilə rus sülhməramlılarını ifşa etdi və hərbi kontingentin missiyasından kənara çıxdığını söylədi

**Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Qarabağda Rusiya sülhməramlılarının məsuliyyəti zonasına daxil olan ərazilərə səfərlər barəsində danışıb. Zaxarova bildirib ki, 10 noyabr 2020-ci il bəyanatına əsasən Rusiya sülhməramlı kontingenti təmas xətti və Laçın dəhlizi boyunca yerləşdirilib.**

Onun sözlərinə görə, bu bəyanatın 6-cı bəndinə uyğun olaraq Laçın dəhlizi Rusiya sülhməramlılarının nəzarətindədir: ”Xarici vətəndaşlar və beynəlxalq təşkilat və missiya əməkdaşlarının səfərlərinin qaydası Rusiya sülhməramlıları komandanlığının qaydası ilə müəyyənləşir. Bu qayda Azərbaycan və Ermənistan tərəflərinə yaxşı məlumdur. Belə səfərlər barədə Rusiya sülhməramlılarına əvvəlcədən və lazımi qaydada müraciət olunması nəzərdə tutulub”. Zaxarova unudur ki, rus sülhməramlıları müvəqqəti olaraq və konkret missiyanı icra etmək üçün Azərbaycana gəlib. Onların fəaliyyət göstərdikləri ərazi Azərbaycan torpaqlarıdır. Rusiya sülhməramlıları Laçın dəhlizində gömrük və sərhəd-keçid məntəqəsi funksiyasını həyata keçirə bilməz. Sülhməramlılar sadəcə Ermənistandan Qarabağa yerli ermənilərin gəliş-gedişini təmin etmək səlahiyyətinə malikdir. Xarici vətəndaşların Azərbaycandan icazəsiz bölgəyə səfərləri təxribat və beynəlxalq hüququn pozulmasıdır.

**Rusiya XİN rəsmisinin bəyanatını ”Şərq”ə təhlil edən siyasi şərhçi Turan Rzayev deyib ki, Zaxarova öz dili ilə rus sülhməramlılarını ifşa etdi və hərbi kontingentin missiyasından kənara çıxdığını söylədi.** Analitik vurğulayıb ki, Prezident İlham Əliyevin ölkə televiziyalarına son müsahibəsində sülhməramlıların davranışlarını tənqid etmişdi. Prezidentin həm Valeri Pekresin Qarabağa qanunsuz səfərini, həm də Rusiya sülhməramlılarının bu səfərə göz yummasını tənqid etməsi yerində və düzgün idi. Məsələyə Rusiya XİN rəsmi nümayəndəsi Mariya Zaxarovanın reaksiya verməsi də bunu bir daha sübut edir: ”Zaxarova məsələyə verdiyi rəsmi mövqe ilə əslində Valeri Pekresin Qarabağa qanunsuz səfərinə Rusiya sülhməramlılarının şərait yaratdığını da etiraf etmiş oldu. O bildirdi ki, Laçın dəhlizi Rusiya sülhməramlılarının nəzarətindədir, Azərbaycanda da bunu bilirlər. Zaxarova 10 noyabr bəyanatının 6-cı bəndinə istinad edir. Ancaq razılaşmanın 6-cı bəndində ”xarici vətəndaşlar” qeydi yoxdur. Əgər elə olsaydı, Azərbaycan tərəfi hər dəfə xarici vətəndaşların icazəsiz səfərinə qarşı çıxmaz, narazılığını bildirməzdi. Digər tərəfdən, Prezident dəfələrlə çıxışında bu məsələ ilə bağlı qeyd edib ki, Qırmızı Xaç Komitəsi istisna olmaqla, heç bir beynəlxalq təşkilat Bakının icazəsi olmadan Qarabağa səfər edə bilməz. Zaxarova Valeri Pekreslə bağlı əvvəlcədən rus sülhməramlılarına xəbər verilib-verilmədiyi, səfərin razılaşdırılıb-razılaşdırılmadığı barədə məsələyə aydınlıq gətirməkdən yayınıb. Halbuki Prezident İlham Əliyev ölkə televiziyalarına son müsahibəsində qeyd edib ki, ”bizə belə bir cavab verildi ki, görməmişik, bilməmişik, diqqətdən kənarda olub, o, hansısa adi bir maşında gəlib və sair”.

*T.Rzayevin qənaətincə, Zaxarova öz çıxışı ilə Valeri Pekresin Qarabağa gizli səfərinə ruslar tərəfindən razılıq verildiyini etiraf edib:* ”O, Rusiyanın sülhməramlı missiya adı altında Qarabağa yerləşdirdiyi hərbi kontingentin öz missiyasından kənara çıxdığını, Azərbaycanın suveren hüquqlarına məhəl qoymadığını vurğulayıb. Rusiya qoşunlarının sülhməramlı deyil, işğalçı ordu kimi davrandığını təsdiqləyib. Zaxarova Laçın dəhlizi Rusiya sülhməramlılarının nəzarətindədir deyərək həm də Azərbaycanın Laçın dəhlizinə nəzarət etmək istəməsindən rusların narahat olduğunu göstərir. Halbuki BMT-nin qəbul etdiyi təcrübəyə əsasən, sülh əməliyyatı, sülhəməcburetmə əməliyyatından fərqli olaraq, kontingentin yerləşdiyi ölkənin suverenliyinə məhdudiyyət qoymur. Bu, yalnız BMT TŞ-nin xüsusi qətnaməsi əsasında həyata keçirilə bilər. Dövlət sərhədinin müdafiə edilməsi kimi vəzifələr sülhməramlı qüvvələrin öhdəliyinə verilə bilməz. Onların vəzifəsi yalnız müvəqqəti məsuliyyət zonasında hüquq-mühafizə və təhlükəsizlik funksiyası ilə məhdudlaşır”.

**İsmayıl Qocayev**



# Karantin müddəti 7 günə endirilib!

## Bu onunla əlaqəlidir ki, artıq vaksinasiya olunanların və xəstəlikdən sağalanların sayı artıb

**Azərbaycanda koronavirusa yoluxanlar üçün karantin müddəti 7 günə endirilib. Bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb.**

**Bunun səbəbləri barədə ”Şərq”ə danışan infeksionist-hepatoloq Mərdan Əliyev bildirib ki, karantin müddətinin 7 günə endirilməsi beynəlxalq təcrübə ilə bağlıdır:** ”Bilirsiniz ki, ”Omicron” variantı bizə yeni gəlsə də, Avropa və Türkiyədə iki aya yaxındır ki, mövcuddur. Onlarda da bu müddət 14 gündən 7 günə endirilib. Bizim ekspertlər də 7 günün kifayət etdiyini müşahidə ediblər və xarici təcrübəyə əsasən, həmin müddət azaldılıb. Bu onunla əlaqəlidir ki, artıq vaksinasiya olunanların və xəstəlikdən sağalanların sayı artıb. Eyni zamanda, virusun yoluxdurma qabiliyyəti xəstəliyin 1 və 2-ci günü çox olur. Bundan sonrakı günlərdə yoluxma qabiliyyəti kəskin sürətdə zəifləyir. Ölkəmizdə ”Omicron”a yoluxmada sürətli artım var. Bundan sonra da artım gözlənilir. Bütün bunları nəzərə alaraq karantin müddəti 7 günə endirilib. Amma bu o demək deyil ki, 7 gündən sonra şəxs mütləq çölə çıxmalıdır. Tövsiyə olunur ki, əgər şəxsin qızdırması 6-7-cü gün də davam edirsə, həmin şəxs ehtiyatlı davranmalıdır. Birinci növbədə öz sağlamlığını düşünməlidir. Həmçinin, sonrakı bir həftə ərzində tibbi maskalardan istifadə etməlidir”.

**Çimnaz Şahlar**



# ABŞ məlumatlıdır

## Ukraynada müharibənin başlanması ehtimalı yüksəkdir

**Böyük Britaniya Ukrayna səfirliyindəki əməkdaşlarını geri çağırmağa başlayıb. Bundan başqa, Yaponiya hökumətindən də bildirilib ki, hazırda rəsmi Tokio öz vətəndaşlarının və səfirlik işçilərinin bu ölkədən təxliyə edilməsi zərurətini nəzərdən keçirir.**

Eyni zamanda Avstriya Xarici işlər naziri Aleksander Şallenberq belə bir planlarının olduğunu və hələlik yekun qərarın olmadığını vurğulayıb. Xatırladaq ki, yanvarın 22-də də Almaniyanın Xarici İşlər Nazirliyindən Ukraynadakı diplomatların ailələrinin təxliyəsi planı üzərində işlənildiyi haqda məlumat verilib. Xəbərdə qeyd olunub ki, Ukraynada vəziyyət gərginləşəcəyi halda səfirlik əməkdaşları vətənə qaytarıla bilər.

**Siyasi şərhçi Turab Rzayev müxtəlif ölkələrin diplomatlarını Ukraynadan geri çağırmasına dair ”Şərq”ə danışarkən bildirib ki, bu, mövcud olan müharibə təhlükəsi ilə əlaqədardır:**

”Artıq Ukraynada müharibənin başlayacağı kifayət qədər ciddi reallıqlara əsaslanır. Proses baş verərsə, həmin diplomatik korpuslar zərbə altında qalacaq. Mövcud duruma görə, Almaniya, ABŞ, eləcə də Yaponiyanın hazırkı addımı atması olduqca əsaslıdır”.

T.Rzayev müxtəlif vaxtlarda Amerika kəşfiyyat idarələrinin məlumatlarına diqqət çəkib: ”Xatırlayırsınızsa, Amerika kəşfiyyatı ikinci Qarabağ savaşı başlamazdan bir neçə gün əvvəl də Bakıdakı səfirliyi ilə bağlı da eynilə belə bir açıqlama vermişdi. Bu onu göstərir ki, onlarda Ukraynada müharibənin başlayacağı barədə də kifayət qədər məlumatlar var”.

***"Bəzi ölkələrin səfirlərini Ukraynadan geri çağırması Rusiya üçün ciddi mesajdır"***

Siyasi şərhçinin fikrincə, sözügedən ölkələrin səfirlərini Ukraynadan geri çağırması Rusiya üçün də ciddi mesajdır: ”Onlar demək istəyir ki, Qərb və digər ölkələr rəsmi Moskvanın planlarından xəbərdardır. Bunu elan etməklə də Rusiya üzərində bir ictimai basqı yaratmağa çalışırlar ki, o, Ukraynanı işğal etmək planlarından əl çəksin”.

**Günəş Mərd**

# İran Zəngəzur dəhlizinin açılmasında maraqlıdır

## Tehran çalışır ki, Azərbaycan üzərindən həm Rusiyaya, həm də Avropaya çıxsın



**Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov İrana rəsmi səfər edəcək. Bu barədə Azərbaycanın İrandakı səfiri Əli Əlizadə bildirib. Səfir qeyd edib ki, səfərin 25 yanvarda baş tutması gözlənilir.**

Qeyd edək ki, bir müddət əvvəl Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən rus sülhməramlı qüvvələrinin yeni komandanı general-mayor Andrey Volkovu Müdafiə naziri, general-polkovnik Zakir Həsənov qəbul edib. Görüş zamanı rus sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Qarabağ iqtisadi zonasındakı əməliyyat şəraiti müzakirə olunub.

General-mayor A.Volkovu general-leytenant Rüstəm Muradov təqdim edib.

Vurğulayaq ki, Rüstəm Muradov Dağlıq Qarabağdakı Rusiya sülhməramlı kontingentinin ilk komandanı olub. Ondan sonra qısa zaman ərzində bu vəzifəyə general-mayor Mixail Kosobokov təyin edilib. Daha sonra həmin vəzifəni general-leytenant Gennadi Anaşkin icra edib. A.Volkov bu işə 2020-ci ilin 10 noyabrından etibarən təyin olunan dördüncü şəxsdir.

Ə.Əlizadə həmçinin ”Twitter” hesabında məlumat verib ki, İranın yol və şəhərsalma naziri Rüstəm Qaseminin başçılığı ilə nümayəndə heyəti Azərbaycanın Füzuli şəhərinə səfər edib. Onun sözlərinə görə, nümayəndə heyəti Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə də gedəcək.

İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi iki ölkə arasında bir çox sahələrdə birgə böyük layihələrin olduğunu qeyd edib. Səfəri çərçivəsində iki ölkə arasında enerji, sənaye, tranzit, kənd təsərrüfatı və digər sahələrdəki layihələr haqqında müzakirələr aparılacağını bildirib.

İranlı nazir səfər çərçivəsində Azərbaycan rəsmiləri ilə görüşəcək.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ”Şərq”ə açıqlamasında bildirib ki, əvvəl İranla Azərbaycan arasında münasibətlər gərgin olsa da, artıq Azərbaycan Prezidenti elan edib ki, bizim İranla ciddi problemlərimiz qalmayıb:** ”Azərbaycan müdafiə nazirinin ora səfərində qeyri-adi bir məsələ görmürəm. Çünki qonşu dövlətdir, Azərbaycanın ən böyük sərhədlərindən biri də məhz elə İranladır. Sərhədlərin hər iki tərəfində ordu var. Təbii ki, Azərbaycan Müdafiə Nazirliyi ilə İranın silahlı qüvvələri arasında yəqin ki, birgə əməkdaşlıq kimi məsələlərlə bağlı razılaşmalar olacaq. Azərbaycan İranla hər hansı gərginlik istəmir. Füzuli rayonu İranla sərhəddir. Yol və şəhərsalma naziri səfər edibsə, deməli, Zəngəzur dəhlizinin açılmasında İranın bu və ya digər formada fəaliyyəti olacaq. Koridorun açılışı ilə bağlı addımlar atacaq. Çünki hazırda İranın Avropa və Asiya ilə əlaqələri ancaq dənizlədir. Bu da həm vaxt itkisidir, həm çox baha başa gəlir. Ona görə İran çalışır ki, Rusiyaya, həmçinin Azərbaycan üzərindən Avropaya çıxsın. Bütün bunların fonunda İran istəyir ki, dəmiryolu tez təhvil verilsin. Məlum olduğu kimi, İranın Ermənistana kifayət qədər təsiri var. Azərbaycan bu taktikanı seçməklə artıq cənub qonşusunu qarşısında yox, yanında görmək niyyətindədir. Qarşılıqlı səfərlərin əsas məqsədi buna xidmət edir. İnanırıq ki, yaxın gələcəkdə İranın şirkətləri də Qarabağın, xüsusilə də kommunikasiya xətlərinin bərpasında iştirakçı olacaq. Azərbaycan-İran münasibətlərinin yeni müstəviyə keçməsini gözləyirik”.

**Sücayət Mehti**

# İnsanlığa yox, şərə xidmət edirlər

## “Human Rights Watch”ın hesabatı riyakarlığın əyani təsdiqidir




**”Human Rights Watch” təşkilatının Azərbaycana qarşı qərəzi pik həddə çatıb. Daim ikili standartları ilə seçilən qurum ölkəmizə qarşı şər-böhtan dolu növbəti ”hesabat” açıqlayıb.**

Təşkilatın 2021-ci il üzrə hesabatında iddia edilib ki, guya, İkinci Qarabağ müharibəsi zamanı Ermənistanda 71 məktəb ”dağıdılıb”. Hesabat müəllifləri ikinci Qarabağ müharibəsinin Ermənistan deyil, məhz işğal edilmiş Azərbaycan ərazisində aparıldığını görməzdən gəliblər. Bütün dünya bilir, hətta Ermənistan rəhbərliyi, eləcə də Rusiya Prezidenti Vladimir Putin dəfələrlə bəyan edib ki, müharibə Ermənistan ərazisində getmir. Bu, sübuta ehtiyacı olmayan faktdır. Buna baxmayaraq, ”Human Rights Watch” təşkilatı həyasızcasına ”Ermənistan ərazisində” 71 məktəbin dağıdıldığını yazır. Şübhə yox ki, hesabatı hazırlayanlar 30 ilə yaxın erməni işğalı altında qalmış ərazilərimizdə Ermənistanın yüzlərlə məktəbi, uşaq bağçasını, minlərlə evi, onlarla məscidi tamamilə dağıtdığını, yer üzündən sildiyini yaxşı bilirlər. Eyni zamanda düşmənin 44 günlük savaş zamanı Gəncə, Bərdə, Tərtər və Goranboyu atəşə tutması, mülki şəxslərin üzərinə raket atması faktları ilə də tanışdırlar. Lakin onların qərəzi və ermənipərəstliyi bu həqiqətlərin dilə gətirilməsinə mane olur.

Milli Həmrəylik Partiyasının sədri, Birinci Qarabağ müharibəsinin iştirakçısı Əlisahib Hüseynov ”Şərq”ə bildirib ki, ”Human Rights Watch”ın hesabatı saxtakarlığa əsaslanır. Partiya rəhbərinin sözlərinə görə, bu hesabat özünü dünyada haqq və ədalətin ”keşikçi”si kimi təqdim edən təşkilat adına rüsvayçılıqdır: ”Təşkilatın açıq-aşkar saxtakarlığa yol verməsi həm heyrət, həm də təəssüf hissi doğurur. Hesabatı elə tərtib ediblər ki, Azərbaycan ərazilərinin 30 il Ermənistanın işğalı altında qalmasından xəbərsiz olan insanlar yazılan əsassız iddialara və yanlış rəqəmlərə inansınlar. Hesabatın Azərbaycanla bağlı hissəsi dünya ictimaiyyətinin çaşdırılmasına, qərəzli şəkildə yönləndirilməsinə xidmət edir. Azərbaycanı ”təcavüzkar” kimi qələmə vermək istəyirlər. Sənəddə Ermənistan silahlı qüvvələrinin 44 günlük müharibə zamanı cəbhə xəttindən uzaqda yerləşən şəhər və kəndlərimizdəki mülki obyektləri, yaşayış evlərini, məktəbləri atəşə tutmaları barədə bir kəlmə də qeyd edilməyib. Bu da sözügedən beynəlxalq təşkilatın iç üzünü göstərir. ”Human Rights Watch”ın hesabatı riyakarlığın əyani təsdiqidir. Təşkilat insanlığa yox, şərə xidmət edir”.

**İsmayıl Qocayev**

# "Daşınmaz əmlakın reyestrini açıq etməliyik"

## Əkrəm Həsənov: “Bunun konkret müsbət tərəfləri var. Birincisi, açıq dövlət reyestri korrupsiyanın və məmur özbaşınalığının qarşısını alır”



**”Korrupsiyanın, məmur özbaşınalığının, insan haqlarının tapdalanmasının əsas səbəblərindən biri də daşınmaz əmlakın dövlət reyestrinin qapalı olmasıdır”. Bu barədə tanınmış hüquqşünas Əkrəm Həsənov deyib.**

Ekspert bildirib ki, ”Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunun 5-ci maddəsi ”Dövlət reyestrinin açıqlığı” adlansa da, həmin maddənin məzmunundan belə çıxır ki, məlumat yalnız hüquq sahibinin özünə verilir: ”Əksər ölkələrdə bu reyestr hamıya açıqdır. Bütün məlumatlar müvafiq portalda yerləşdirilir, daxil ol və əldə et. Bu, şəffaflığın əsas göstəricilərindən biridir. Ölkəsinə sahib olan xalq ilk növbədə onun ərazisinin - torpaq sahələrinin, binaların kimə məxsus olduğunu bilməlidir. Bunun konkret müsbət tərəfləri var. Birincisi, açıq dövlət reyestri korrupsiyanın qarşısını alır. Məmurlar əmlakı yaxınlarının adına əldə etsə belə, bunu araşdırmaq mümkün olur. İkincisi, açıq dövlət reyestri məmur özbaşınalığının qarşısını alır. Daşınmaz əmlakın özəlləşdirilməsi, müvafiq razılıqların verilməsi və s. şəffaflaşır. Məsələn, hansısa razılığı bir vətəndaşa verib, digərinə verməmək mümkünsüz olur”.

**Ə.Həsənova görə, açıq dövlət reyestri insan haqlarının həyata keçirilməsini asanlaşdırır:** ”Məsələn, qonşu mənzilinizi suya basıb. Kimi məhkəməyə verəcəksiz? Bunu müəyyən etməyə xeyli vaxt gedir. Reyestr açıq olduğu halda isə portal vasitəsilə dərhal əldə edə bilərsiz. Digər misal, binanızın yanında tikinti normalarına zidd nəsə tikilməyə başlayıb. Tikən kimdir? İcazəsi varmı? İndi bunu bilmək mümkün deyil. Açıq reyestrdən isə dərhal öyrənə biləcəksiz. Bu cür misallar çoxdur. Bir sözlə, şəffaf, effektiv iqtisadiyyat qurmaq istəyiriksə, ilk növbədə daşınmaz əmlakın reyestrini açıq etməliyik. İnsan hüquqları sırasında ən vacibi mülkiyyət hüququdur. Mülkiyyət hüququnun obyektləri sırasında isə ən vacibi daşınmaz əmlakdır. Çünki torpaq, miqdarı məhdud olan nemətdir. Buna görə də onun üzərində ictimai nəzarət yoxdursa, digər şeylər haqda danışmaq belə əbəsdir. Ölkəmizə sahib olaq!”.

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İctimai və dövlət maraqlarının müdafiəsi**

# Sağlam nəsil, sağlam gənclik yetişməlidir

## Narkomaniyaya qarşı mübarizədə dövlətin və cəmiyyətin bütün təbəqələri iştirak etməlidir

**Binəqədi Rayon Polis İdarəsinin 5-ci Polis Bölməsinin əməkdaşları tərəfindən həyata keçirilən silsilə əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan 11 nəfər saxlanılıb.**

DİN mətbuat xidmətinin məlumatında qeyd olunur ki, saxlanılan şəxslərdən külli miqdarda narkotik vasitə - heroin və psixotrop maddə (metamfetamin) aşkar olunaraq maddi sübut kimi götürülüb. 5-ci Polis Bölməsinə daxil olmuş əməliyyat məlumatı əsasında keçirilən əməliyyat zamanı paytaxt sakinləri Anar Göyüşov, Zeytun Məmmədov, Anar Nəcəfov, Elmir Abbasov, Nicat Əhmədov, Aftandil Abazov, Ramal Paşayev, Azər Yadullayev, Əfqan Nəzərov, Orxan İsmayılov və Nasir Vələdov tutulublar. Adları sadalanan şəxslər Binəqədi və paytaxtın digər ərazilərində narkotik vasitələrin satışı ilə məşğul olduqlarını etiraf ediblər. Faktlarla bağlı 5-ci Polis Bölməsində toplanan materiallar Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib. Saxlanılan şəxslərin hər biri barəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. Binəqədi rayonu ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin ifşa edilməsi, onların daxil olduğu narkoşəbəkənin digər üzvlərinin saxlanılması istiqamətində polis əməkdaşları tərəfindən əməliyyatlar davam etdirilir. Analoji xəbərlərin yayılması intensivləşib. Narkotik maddələrin satışının qarşısının alınması məqsədilə hüquq-mühafizə orqanları hansısa şəhərdə və ya bölgədə xüsusi əməliyyatlar keçirir, bir qrup şəxs saxlanılır. Bir neçə gün əvvəl də Binəqədi Rayon Polis İdarəsinin Cinayət Axtarışı Şöbəsinin əməkdaşları əməliyyat keçirmişdi və rayon ərazisində narkotiklərin satışı ilə məşğul olan əvvəllər məhkum edilmiş Əli Əhmədov və İntiqam Həsənov tutulmuşdu.
Onlardan həm psixotrop maddə "patı", "şüşə" adlanan metamfetamin, 89 ədəd metadon həbi, həm də odlu silah müsadirə edilmişdi. Məlumatda qeyd edilirdi ki, faktla bağlı Əli Əhmədov və İntiqam Həsənov barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət is?ləri bas?lanılıb. Adları sadalanan şəxslər barəsində həbs-qətimkan tədbirləri seçilib. Saxlanılanların cinayət əlaqələrinin aşkar edilməsi istiqamətində əməliyyat tədbirləri davam etdirilir. Hüquq-mühafizə orqanları üzərlərinə düşən vəzifəni yerinə yetirir. Lakin bu azdır. Uşaq və yeniyetmələr, gənclərlə işləyən, cəmiyyətin mənəvi-psixoloji sağlamlığının qorunmasına cavabdeh olan qurumlar da çalışmalı və hüquq-mühafizə orqanlarının işinə dəstək verməlidirlər. Bunu ilk növbədə dövlət maraqlarımız tələb edir. Azərbaycan dövlətinə sağlam cəmiyyət lazımdır. Ölkədə sağlam nəsil, sağlam gənclik yetişməlidir ki, dövlətin təhlükəsizliyini onlara əmanət etmək mümkün olsun. Dövlət xalqdan, xalq da dövlətdən güc alır. Bu iki məfhum bir-birindən ayrılmazdır. Dövlət maraqlarına xidmət edən nə varsa, eyni zamanda ictimai maraqlara da uyğundur. Narkotik vasitələrin dövriyyəsinin genişlənməsi heç bir halda dövlət maraqlarına xidmət edə bilməz, çünki nəticədə bu, cəmiyyətdə xəstə insanların artmasına səbəb olacaq. Xəstə dedikdə, hərfi mənada orqanizmin hansısa xəstəliyə tutulmasından söhbət getmir. Burada mənəvi aşınmaya, psixoloji sarsılmalara məruz qalan vətəndaşdan söhbət gedir. Belə vətəndaşın da nə cəmiyyətə, nə də dövlətə xeyri dəyər. Bu sahədə hansı işlər görülməlidir ki, cəmiyyətin sağlamlaşmasına xidmət etsin?



Professor Rafiq İsmayılov "Şərq"ə açıqlamasında qeyd etdi ki, narkomaniyanın qarşısı kompleks tədbirlərlə alınmalıdır:

- Narkomaniya elə bir bəladır ki, ona nəinki sivil cəmiyyət, hətta cinayətkar aləm də mənfi münasibət bəsləyir. Cəzaçəkmə müəssisəsinə məhz narkotik maddələrin satışı, dövriyyəsini təşkil etməyə görə düşənlərə məhbuslar da xor baxır, onları daim aşağılayır. Yəqin bunu ədəbi əsərlərdə, filmlərdə də görmüsünüz. Narkotik alverçiləri, cəmiyyəti, insanları zəhərləyənlər hər zaman qınaq obyekti olur, hətta onlara qarşı qanunun tələbləri öz yerində, "yeraltı dünya" nümayəndələri tərəfindən də xüsusi cəzalar tətbiq edilir. Hesab edirəm ki, narkomaniya əleyhinə kompleks tədbirlər aparılmalıdır. Təhsil Nazirliyi, Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Məşğulluq Mərkəzi, icra hakimiyyətləri, qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar, xeyriyyə fondları Dövlətin və cəmiyyətin bütün təbəqələri bu prosesdə iştirak etməlidir. Xüsusi qrantlar ayrılsın, maarifləndirmə tədbirləri həyata keçirilsin. Araşdırma və tədqiqatlar aparılsın. Maarifləndirmə tədbiri deyiləndə, çox zaman bunu "dəyirmi masa" keçirmək kimi qəbul edirlər. 5-6 nəfər yığışır, müzakirə aparır, bəzi statistik rəqəmlər səsləndirilir, bununla guya ki iş tamam olur. Belə deyil, maarifləndirmə tədbirləri məktəbləri, ali təhsil müəssisələrini, yaşayış massivlərini əhatə etməlidir. Məktəblinin istifadə edə biləcəyi broşüralar nəşr etdirmək, orada narkomaniya, onun zərərləri barədə məlumat vermək, daha əsası, bu tora düşməməyin üsulları izah edilməlidir. Narkomaniya həm də psixoloji məsələdir. İnsanlara psixoloji təsir göstərərək tora salırlar. Məsələn, birisi yeniyetməyə deyir: "Kişi ol, al "çək"". Yeniyetməyə anladılmalıdır ki, kişilik narkotik çəkməklə ölçülmür. Kişilik igidlikdir, xalq yolunda, Vətən yolunda igidlikdir. Hansı ki, Vətən müharibəsində minlərlə gəncimiz torpaqlarımızı düşməndən azad etməklə bunu nümayiş etdirdi. Kişilik evdə ailənin, övladların təəssübünü çəkməkdir. Narkotik çəkib ağlını, dərrakəsini itirən şəxsdən ailə başçısı olmaz. Uşaqlara, gənclərə bunlar sadə dillə, konkret nümunələrlə anladılmalıdır. Vətəndaşlar bilməlidir ki, narkotik istifadəçiləri başqalarını tora salmaq üçün hansı çağırışları edir, hansı üsullardan istifadə edib digərlərini özlərindən asılı vəziyyətə salırlar.

**R.İsmayılov qeyd etdi ki, narkomaniyaya qarşı mübarizədə sosial çarxlar, maarifləndirici sosial reklamlar da önəmlidir:**

- Qonşu dövlətlərdə bunun yaxşı nümunələri var. Bizdə də narkomaniyaya qarşı sosial çarxlardan istifadə edilir. Lakin bunlar yetərsizdir. Bu sosial çarxların, sosial reklamların əhalinin bütün təbəqələrinə çatdırılması təmin edilməlidir. Bölgələrdə işsiz insanların məşğulluğunun təmin edilməsi, eləcə də yeniyetmə və gənclərin asudə vaxtının maraqlı keçməsi üçün zəruri tədbirlər görülməlidir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Qiymət artımının sonu yaxınlaşır

## İlin ikinci yarısından dünya qlobal dəyər zənciri ilə olan problemlər öz axarına düşəcək

**Yanvarın 18-də Azərbaycanın Baş naziri Əli Əsədovun sədrliyi ilə ölkədə ərzaq təhlükəsizliyi, qiymət artımı və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib.**

Aidiyyəti dövlət qurumlarına qısa müddət ərzində "Antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" Tədbirlər Planı barədə təkliflərini hökumətə təqdim etmələri tapşırılıb.

Hazırlanacaq çevik və kompleks antiinflyasiya proqramının qısamüddətli dövrdə hökumətə inflyasiyanın amillərini nəzarətdə saxlamağa imkan verə biləcəyi izah edilib.

İnflyasiyanın formalaşmasında monetar və qeyri-monetar amillərə nəzarət, ərzaq təminatı və ərzaq təhlükəsizliyi, idxaldan asılılıq səviyyəsinin azaldılması kimi məsələlərə xüsusi diqqət yetirilib.

Həmçinin elektron ticarətin, rəqəmsal ödənişlərlə bağlı vəziyyətin daha da yaxşılaşdırılması, nağdsız hesablaşma və ödəniş alətlərindən istifadə səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlərin davam etdirilməsi qeyd olunub.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Xalid Kərimli 2022-ci ildə inflyasiyanın 2021-ci ilə nisbətən daha az olacağının proqnozlaşdırılıdığını bildirib:**

"Bu təkcə Azərbaycanda yox, qlobal miqyasda da belə olacaq. Əsas səbəbləri bunlardır ki, Amerika Mərkəzi Bankı dolların dəyərinin artırılması, dünyanın Mərkəzi Bankları da öz valyutalarının dəyərinin artırılması istiqamətində addımlar atacaq. İnflyasiyanın mübarizə tədbirləri çərçivəsində faiz dərəcələrini artıracaqlar. Pulun dövriyyədə çox olması Amerika, Avropa və inkişaf etmiş ölkələr tərəfindən dönərli valyutaların dövriyyəyə çox buraxılması pulun dəyərini kəskin şəkildə aşağı salıb. Bu da qiymətləri artıran amillərdəndir".

Ekspert qeyd edib ki, dünyada daşıma qiymətləri kəskin yüksəlib:

"Bunun tədricən aşağı düşəcəyi gözlənilir. İlin ikinci yarısından dünya qlobal dəyər zənciri ilə olan problemlər öz axarına düşəcək. Çünki bahalaşan, yəni idxal vasitəsilə Azərbaycan bazarına və dünya əhalisinə təsir göstərən qiymətləri insanlar çox rahat həzm edə bilmir. Qiymət artımının sonları yaxınlaşır. Həmçinin Azərbaycan Mərkəzi Bankının bahalı pul siyasəti həyata keçirməyə başlaması inflyasiyanın zəifləməsinə gətirib çıxaracaq. İqtisadiyyat Nazirliyinin, Maliyyə Nazirliyinin, beynəlxalq təşkilatların proqnozları bunu göstərir".

**İqtisadçı-ekspert antiinflyasiya tədbirləri əsasında süni qiymət artımının qarşısının alına biləcəyini qeyd edib:**

"Hökumətin antiinflyasiya tədbirləri ilə bağlı iş daha çox İqtisadiyyat Nazirliyi və Mərkəzi Bankın üzərinə düşür. İqtisadiyyat Nazirliyinin antiinhisar xidməti, xüsusilə, bazara təsir göstərə bilən, hökmran mövqeyə sahib olan inhisarçıların fəaliyyətini nəzarət altına almalıdır. Çünki onlar şəraitdən istifadə edib lazımından artıq qiymət artımına getməsinlər. Beləliklə, süni qiymət artımının qarşısı alınar".

*X.Kərimli bütün baş verən proseslərdə daxili idxalçıların və ya istehsalçıların günahı olmadığını vurğulayıb:*

"Son 18 ay ərzində dünyada qiymət artıb. Qlobal ərzaq qiymətləri indeksi 35 faizdən çox bahalaşıb. Təkcə buğda qiymətləri dünya bazarında 50 faizə qədər artıb. Antiinhisar xidməti sui-istifadə hallarına, bazarda mövqe tutan subyektlərə nəzarəti artırmalıdırlar. Və artırırlar".

**Cəmilə ƏZİM**

# "Ustad yazıçıları oxuyanadək yazıçı olmaq istəmişəm"

## "Amma sonra görəndə ki, mən onlarla bir sırada dura bilməyəcəm, o arzumun üstündən birdəfəlik xətt çəkmişəm"

**Atatürk deyib ki, müəllim şam kimidir - özü yanıb tükənərkən ətrafını işıqlandırır. Bu fikri çox sevirəm. Çünki həqiqət payı kifayət qədərdir. Əsl müəllimlər gələcək ixtisaslı kadrlar, alimlər yetişdirmək üçün böyük fədakarlıq göstərirlər. Nə umacaqları olur, nə təmənnaları. Yeganə təsəllini yetirmələrində tapırlar.**



Cahangir Məmmədli: "Ömrümün o kənddə keçən 17 ilini heç nə əvəz edə bilməz"

Eyni ilə mənim kimi yüzlərlə media nümayəndəsinin müəllimi, Azərbaycan mətbuatının ağsaqqallarından biri, BDU-nun Jurnalistika fakültəsinin Yeni media və kommunikasiya nəzəriyyələri kafedrasının müdiri, professor Cahangir Məmmədl: kimi. Demək olar, Azərbaycan jurnalistikasında olan hər kəs Cahangir müəllimi tanıyır. O, bəzilərinə auditoriyada dərs deyib, bəzilərinə isə istehsalatda, praktik məsələlərdə. Amma əsl ustad dərsi. Buna Cahangir müəllimin yarım əsrdən çox pedaqoji təcrübəsi imkan verir. Bəli, ömrünün yarısından çoxunu doğma universitetinə, əziz tələbələrinə həsr edən Cahangir müəllimin bu günlərdə 80 illik yubileyi olacaq. Bu münasibətlə onunla elə fakültəmizdəki iş otağında blits-müsahibə etdik. - 80 ilin ən yaddaqalan hadisəsi hansı olub?

- 1968-ci ilin avqustunda jurnalist ixtisası üzrə BDU-ya qəbul olmağım.

**- Ümumiyyətlə, ömrün 80-ci ili sizin üçün nədir?**

- 80 illik ömür uzun və sənətkar qələmindən çıxan bir romanın epiloqudur.

**- Sizin üçün Vətən hardan başlayır?**

- Doğulduğum kənddən.

**- 17 il kənddə yaşadınız, 63 il şəhərdə. Kəndçisiniz, yoxsa şəhərli?**

- Ömrümün o kənddə keçən 17 ilini heç nə əvəz edə bilməz.

**- O kənddə sizin üçün ən əziz xatirə?,,**

- Yay aylarında sellərə qərq olan Qarqar çayında çimməyimiz.

**- Bitirdiyiniz o kənd məktəbində oxumuş kimlərlə fəxr edirsiniz?**

- Böyük alim Xudu Məmmədov, məndən 5 sinif aşağı oxumuş və bu gün də təsəlli yerim olan dostum Hüseyn Kazımov.

**- Sizin haqqınızda belə bir fikir var: uşaqlıqdan mütaliəyə sonsuz maraq. Ən çox sevdiyiniz bədii əsər hansıdır?**

- Anarın "Mən, sən, o və telefon" hekayəsi.

**- Dilimizdə ən çox sevdiyiniz söz?**

- "Sevgi".

**- Təhsil illərinizdə ən çox hansı müəlliminizə güvənmisiniz?**

- Professor Əlövsət Abdullayeva.

**- Bəs tələbə-məzunlarınız arasında ən çox güvəndikləriniz kimlərdir?**

- Mirşahin Ağayev, Rəşad Məcid

**- Olubmu ki, hansısa yüksək vəzifədə gözünüz olsun, amma əliniz çatmasın?**

- Tanrım mənim alnıma bircə vəzifə yazıb: universitet müəllimi. Və mən bu alın yazısına heç vaxt xəyanət etmək fikrində olmamışam.

**- Paxıllığa necə baxırsınız?**

- Paxıllıq insanı içdən yeyən və ömrünü qısaldan dərmansız xəstəlikdir.

**- Üslubunuzda bədii detallara çox rast gəlirik. Haçansa ürəyinizdən yazıçı olmaq keçib?**

- Ustad yazıçıları oxuyanadək belə bir arzuda olmuşam. Amma sonra görəndə ki, mən onlarla bir sırada dura bilməyəcəm, o arzumun üstündən birdəfəlik xətt çəkmişəm.

**- Torpaqlarımız yağı düşməndən azad olundu, sevdiyiniz o kəndə nə vaxt qayıdacaqsınız?**

- Mən o kənddən əslində heç vaxt çıxmamışam.

**- Ölümə münasibətiniz necədir?**

- Tanrım mənə çox şeyi qismət elədi: uzun ömür, nəvələr, nəticələr Haçansa göndərəcəyi ölümü də Tanrının payı hesab edəcəm.

**- Çap mətbuatında böyüdünüz. Lakin bu mətbuat indi sanki ölәziyir**

- Klassik mətbuatın sıradan çıxma ehtimalı mənim də ömrümün sona yetmək ehtimalı ilə üst-üstə düşür. Onun məndən qabağa düşməyini istəməzdim.

**- Yaddaşınızda hansı bədii filmlər əbədi qalıb?**

- Uşaqlıqdan "Avara". Çox sevdiyim "Dirilmə" filmi isə cavan çağlarıma aiddir.

**- Xəyanət sizin üçün nədir?**

- Xəyanəti Allah heç vaxt bağışlamır: gec-tez, mütləq xəyanət sahibinin cəzasını verir.

**- Xeyli sayda kitabınız var. Bəs özünüzün ən çox razı qaldığınız hansıdır?**

- Səksəndən sonra yazacağım kitab.

**Kənan Novruzov**

# Xaricdə təhsil alan həkimlərə yüksək maaş vəd olunur

## Musa Quliyev: "Xüsusi proqramlar hazırlayarkən həkimlər arasında ciddi maaş fərqi qoyulmamalıdır"



Proqram çərçivəsində orta və qeyri-tibb işçilərinin ixtisaslarının artırılması da əsas hədəflərdən biridir. Belə ki, tibb müəssisələrində çalışan orta tibb işçiləri və biomedikal sahəsi üzrə mühəndislərin ixtisaslarının artırılması məqsədilə Türkiyə Cümhuriyyətinin aidiyyəti qurumları ilə əməkdaşlıq çərçivəsində təlimlərin keçirilməsi nəzərdə tutulur. Hər il 50 nəfər orta tibb işçisi və 30 nəfər biomedikal sahəsi üzrə mühəndis müvafiq tibb müəssisəsinin rəhbərinin təqdimatı əsasında Komissiya tərəfindən seçilərək

**"Xaricdə təhsil almış həkimlərin tibb müəssisələrinə cəlb olunması proqramına başlanılır".**

Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Marketinq və ictimaiyyətlə əlaqələr departamentinin rəhbəri Aynurə Əhmədova deyib. O bildirib ki, bu, vacib proqramdır: "Əhali daha çox xaricdə oxuyan həkimlərin qəbulunda olmağa maraq göstərir, buna görə özəl tibb müəssisələrinə üz tuturlar. Bu proqram 2022-2023-cü illəri əhatə edəcək. Əsas gözlənti odur ki, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyəti yüksələcək".

O deyib ki, bir il ərzində bu proqrama 8 milyon manatdan çox vəsait xərclənməsi nəzərdə tutulub. Bu zaman Bakı, Sumqayıt və Gəncə şəhərlərindəki tibb müəssisəsinə üstünlük veriləcək.

***"Türkiyə universitetlərində yüksək elmi dərəcə qazanan həkimlərlə Azərbaycan Tibb Universitetində eyni dərəcəni qazanmış həkimlərin maaşları arasında kəskin fərq olmamalıdır"***

təlimlərə cəlb olunacaq.

**Layihə ilə bağlı "Şərq"ə danışan millət vəkili, tibb üzrə fəlsəfə doktoru Musa Quliyevin sözlərinə görə, bu, böyük bir proqram olmalıdır və hazırlanmasında tələskənliyə yol verilməməlidir:**

"Xaricdə təhsil alaraq uzmanlıq səviyyəsinə yüksəlmiş mütəxəssisləri burada qoruyub saxlamaq üçün onların maddi təminatlarının yaxşılaşdırılmasına, yüksək əməkhaqqı ilə təmin edilməsinə ciddi ehtiyac var. Tibb spesifik bir sahədir. Xüsusən, müasir tibb texnologiyalarından uğurla istifadə edən həkimlərin ölkə üçün olduqca böyük faydası və əhəmiyyəti var.

Bu tendensiya 3 il əvvəl Türkiyədə də var idi. Bunu aradan qaldırmaq üçün həm Türkiyə vətəndaşı, həm də burada müəyyən təhsil almış xarici ölkə vətəndaşı olan həkimlərin yüksək əməkhaqqı ilə təmin olunmasıyla bağlı proqram hazırlandı. Bu, yüksək səviyyədə ixtisaslaşmış türk həkimlərin Avropaya getməsinin qarşısını aldı. Ancaq Azərbaycan üçün ciddi həkim qıtlığı probleminin yaranmasına səbəb oldu. Çünki bizim həkimlərin əksəriyyəti Türkiyədə təhsil alıblar və ya orada kvalifikasiya keçiblər. Buna görə də bizim maaşlar ən azından Türkiyədəki ilə bərabər olmalıdır ki, dəyərli kadrlarımızın itkisi ilə üzləşməyək".

**Deputat qeyd edib ki, bu problemləri həll etmək üçün xüsusi proqramlar hazırlayarkən həkimlər arasında ciddi maaş fərqi qoyulmamalıdır:**

"Türkiyə universitetlərində yüksək elmi dərəcə qazanan həkimlərlə Azərbaycan Tibb Universitetində eyni dərəcəni qazanmış həkimlərin maaşları arasında kəskin fərq olmamalıdır. Bu, müəyyən gərginliyə yol açan və diskriminasiyanın yaranmasına səbəb ola bilər. Əgər Türkiyənin, Almaniyanın diplomları bizimkilərlə eyni səviyyədə tanınırsa, maaşlar da eyni olmalıdır.

Burada bir çox incə məqamlar da var və differensial yanaşma tələb edir. Mərkəzi şəhərlərdə və bölgələrdə çalışan həkimlər arasında da müəyyən fərqlər qoyulmalıdır ki, rayon və kəndlərdə fəaliyyət göstərən həkimlər şəhərlərə axın etməsin. Eyni zamanda orta tibb işçilərinin də bu proqrama cəlb edilməsi lazımdır.

Bu proqram birinci mərhələ üçün böyük şəhərləri nəzərdə tuta bilər, ancaq sonrakı mərhələlərdə kənd və rayonlar da bura əlavə edilməlidir. Əgər biz ailə həkimi institutunu yaratmışıqsa, kənd yerlərində həkimlərin qalıb işləməsi, daimi fəaliyyət göstərməsi üçün onların maddi təminatları yüksək səviyyədə olmalıdır. Əks halda onlar orada qalmayacaqlar və biz həmin yerlərdə həkim qıtlığı problemi ilə üzləşəcəyik".

**Sənan İsmayıl**




## "Nar" Azərbaycan çempionu tituluna sahib oldu

**"Nar" komandası bütün rəqiblərini geridə qoyaraq "Breyn Rinq" üzrə 2021-cu ilin Azərbaycan çempionu tituluna sahib olub.**

Azərbaycanın 6 universitet və 6 region komandası da daxil olmaqla 16 komanda 4 ay boyunca gərgin mübarizə aparıb. Finalda "Nar" komandası "Bilik" kubokunun sahibi "Bridge" komandası ilə qarşılaşıb və ilin qalib olub.

"Azerfon"un Baş icraçı direktoru Qunnar Panke qalib "Nar" komandasının üzvləri ilə görüşüb və onları təbrik edib: "Nar" komandasının mütləq çempion olaraq xüsusi seçilməsi sizin əzminiz, savadınız və cəld düşünmə qabiliyyətiniz sayəsində olub. Belə savadlı gənclərin nailiyyətləri bizi sevindirir və uğurlarınızın davamlı olmasını diləyirəm".

*Qeyd edək ki, "Breyn Rinq" bilik yarışı "Nar"ın korporativ sosial məsuliyyət strategiyası çərçivəsində elm və təhsilə dəstək layihələrindən biridir. Mobil operator artıq 9 ildir ki, "Breyn Rinq" intellektual oyununa dəstək olur. "Nar"ın sosial layihələri haqqında ətraflı məlumatı http://www.nar.az səhifəsindən əldə etmək olar.*


Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com


# Manatın ucuzlaşması gözlənilmir

## Çünki neftin qiyməti artıq 90 dolları ötüb

**Sosial şəbəkələrdə yayılan məlumatlara görə, ölkədə bəzi banklar dolların satışını dayandırıb. Bir çox insan bu halla rastlaşdığını və səbəbini öyrənmək istədiyini bildirib.**

**Məsələ ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Eyyub Kərimli belə hallarla rastlaşmadığını bildirib:** "Mən də bununla bağlı istehlakçı kimi banklara müraciət etmişəm. Amma belə hallarla rastlaşmamışam. Bəzi hallarda banklar dolların bitdiyini deyib və daha sonra yaxınlaşmağımı istəyib. Mən də həmin vaxt gəlib, istədiyim əməliyyatı həyata keçirmişəm".

İqtisadçı bu kimi halların baş verməsinə səbəb olacaq amilləri açıqlayıb: "Anladığıma görə, əhali arasında təşviş yaranıb. Vətəndaşların dollara marağı artıb. İnsanlar vəsaitlərini xarici valyutaya dəyişmək istəyirlər. Bu, banklarda dolların bitməsinə səbəb ola bilər. Amma hazırda banklarda dolların satışında əhəmiyyətli məhdudiyyət görmürəm.

Digər tərəfdən, Mərkəzi Bankın son məlumatlarına əsasən, bankların özü də dollar alışına olan tələbatını artırıblar. Bu da görünür ki, onların Yeni ildən qabaq biznes strukturlarına ayırdığı dollar vəsaiti ilə bağlıdır. Bildiyimiz kimi, Yeni ildən öncə biznes strukturları ölkəyə müəyyən məhsulları daha çox idxal edirlər. Buna görə də dollara tələbat arta bilər".

**Ekspert manatın məzənnəsinin və dəyərinin ucuzlaşma ehtimalından danışıb:** "Hazırda manatın ucuzlaşmasının iqtisadi əsasları yoxdur. Çünki neftin qiyməti artıq 90 dolları ötüb. Digər tərəfdən bizim valyuta ehtiyatlarımız 53 milyard manatdır. Həmçinin dollara olan tələbat da ödənilir. Lakin onu da qeyd etmək istəyirəm ki, hazırda manatın dəyəri ucuzlaşmaqdadır.

Aparılan araşdırmalar göstərir ki, manat 2011-2012-ci ilə nisbətən alıcılıq dəyərini azaldıb. Tutaq ki, bu gün 150 manata aldığımız məhsulu 2011-ci ildə 100 manata və ya daha aşağı qiymətə alırdıq. Bu, manatın dəyərində ucuzlaşma baş verdiyini göstərir.

Bu da ölkədə manatın dövriyyəsinə olan müəyyən təzyiqdən yaranır. Lakin bizdə "üzən məzənnə" olmadığından və Mərkəzi Bankın manatı inzibati yollarla tənzimlədiyindən, hazırda bu haqda birbaşa nəsə söyləmək çətindir. Lakin sadaladığım problemlər var, manatın dəyərinin aşağı düşməsi mövcuddur.

Əlbəttə ki, bütün proseslər gələcək üçün arzular və planlamalar yaradır ki, manat "üzən məzənnə" rejiminə keçsin və inzibati yollarla yox, öz-özünü tələb-təklif əsasında tənzimləsin. Lakin bu haqda hələ ki, ciddi siqnallar yoxdur. Hesab edirəm ki, yaxın zamanda manatın məzənnəsində elə də ciddi dəyişiklik müşahidə etməyəcəyik".



***Yaxın günlərdə ciddi məzənnə dəyişikliyi müşahidə edilməyəcək***

**Çimnaz Şahlar**



# Qədim Azərbaycan irsi Nyu-York Sərgisində...

**Gəncə şəhərindən olan iki azərbaycanlı gənc Orxan Məmmədov və Lara Binnet Azərbaycanın mədəni irsini dövrümüzün ən son texnologiya alqoritmi sayılan süni intellekt ilə birləşdirərək, ABŞ-ın Nyu-York şəhərində keçiriləcək sərgidə dünya ictimaiyyətinin diqqətinə çatdıracaqlar. Belə ki, sözügedən tədbirdə bu iki bacarıqlı gənc öz ana vətənlərinin, eləcə də Məhsəti və Nizami Gəncəvi kimi dahi şəxsiyyətlərin yaşayıb yaratdıqları Gəncə şəhərinin mədəni irsini süni intellektlə birləşdirərək sərgiləməyə hazırlaşırlar.**

"Şərq" xəbər verir ki, burada maraqlı və çox önəmli faktorlardan biri də budur ki, dünyanın ən reytinqli universitetlərini bitirən və qabaqcıl şirkətlərin süni intellekt ilə reklam olunmasında yaxından iştirak edən Lara Binnetin babası Mustafayev Mehmet Mikayıl oğlu əslən Goranboy rayonunun Quşçular kəndindən, nənəsi isə Şamaxının Salamzadə nəslindəndir.

Onun Azərbaycanın qədim mədəni irsinə, Azərbaycançılıq məfkurəsinə olan sevgisi, bağlılığı və əmək sərf edərək bu dəyərləri dünyanın gözü önündə yayımlaması da elə öz böyüklərinin əslən bu torpaqdan olmasıdır.

Nyu-Yorkun və bütün dünyanın görkəmli kolleksiyaçılarının dəvət aldıqları bu möhtəşəm sərgi hər biri beş dəqiqə olmaqla doqquz özəl sənət əsərinin qırx beş dəqiqəlik nümayişindən ibarət olacaq. Onu da qeyd edək ki, sərgi 27 yanvar Bakı vaxtı ilə səhər saat 11:30 radələrində baş tutacaq və Mayamidə yerləşən rəqəmsal incəsənət şirkəti "Blackdove"nin rəsmi instaqram hesabında izləyicilər üçün canlı yayımlanacaq.

Nəzərinizə çatdıraq ki, süni intellekt üzrə yüksək biliklərə sahib olan Orxan Məmmədov dünyaya Azərbaycan mədəni irsini çağımızın ən son texnologiya alqoritmi ilə birləşdirən yeganə insanlardandır.

Belə ki, O.Məmmədov 2019-cu ildə İtaliyanın Venesiya şəhərində keçirilən əlli səkkizinci beynəlxalq dərəcəli Venedik Bienali müasir incəsənət sərgisində Azərbaycan pavilionunu layiqincə təmsil edib. Hazırda O.Məmmədov dövrümüzün ən müasir süni intellekt alqoritmindən istifadə edərək, muzeylərimizdə olan ənənəvi Azərbaycan xalça və kilimlərinin on minlərlə təsvirini emal edərək oxşarlıqlarına əsaslanan yeni hüdudsuz kombinasiyalar yaradıb.

Sənətçi O.Məmmədov indiyə qədər yüz əlli mindən çox xalça kompozisiyası və eskiz toplayaraq süni intellekt vasitəsilə birləşdirib və "Estetikanın dirçəlişi" sərgisində bu günə qədər mövcud olmayan xəyali kilimlər yaratmış və dünyaya nümayiş etdirmişdir.

# Azərbaycanda turizmi inkişaf etdirməyin zamanıdır

## İqtisadçı səbəbləri və çıxış yolları göstərdi



**Hazırda turizm dünyada sürətlə inkişaf edən sahələrdən biridir. Bu sahə bir çox ölkə üçün biznes mahiyyəti daşıyır və dövlət büdcəsinə xeyli gəlir gətirir. Amma Azərbaycanda turizm, xüsusilə qış turizmi tam inkişaf etməyib.**

Qonşu ölkələrlə müqayisə etdikdə, respublikamızda bu sektorun necə axsadığını müşahidə edə bilərik. Vətəndaşlar bu mövsüm də istirahət üçün xarici ölkələrə üz tutur. Xaricdən gələn şəxslərin sayında da azlıq müşahidə olunur.

*Azərbaycandakı turizmin hazırkı vəziyyətini dəyərləndirən iqtisadçı-ekspert Elşad Məmmədov "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan iqtisadiyyatı əsasən xammal ixracatına əsaslanır:*

"Bu tip struktura malik iqtisadiyyatlarda xidmət sferası, yüksək texnoloji sahələrin inkişafı bir çox hallarda problemlərlə üzləşir. Əsas pul kütləsi mədən sənayesinə, xammal və neft sektoruna xərclənir. Digər sahələrdə pul çatışmazlığı yaranır. Pul çatışmazlığı olan yerdə investisiya olmur. İnvestisiya olmasa, nə infrastruktur ola bilər, nə xidmətlərin çeşidi, nə də rəqabət mühiti. Biz bu sahədə fəaliyyət göstərən şirkətlərin, demək olar ki, hamısının eyni qurumlara, eyni imkanlı iş adamlarına məxsus olduğunu müşahidə edirik.

Ona görə də bazarda hegemon statusa malik sahibkarlar istədiyi qiyməti qoyur və qiymətlər əlçatan olmur. Şübhəsiz ki, heç bir orta statistik turist qiymətlərin 2 dəfə baha olan yerə müraciət etməz".

*Ekspert dünya miqyasında turistlərin vəziyyətindən də danışıb:*

"Bütövlükdə, dünyada turistlərin sayı dünya iqtisadiyyatındakı böhranla əlaqədar azalmağa doğru gedir. Bu artıq nəinki Azərbaycanda, digər ölkələrdə də olacaq. Ona görə xaricdən böyük turist axınının gəlməsi ilə bağlı proqnozlarım o qədər də nikbin deyil".

**İqtisadçı ölkədəki turizmi inkişaf etdirmək üçün çıxış yollarını göstərib:**

"Turizm bazarının inkişaf etdirilməsi üçün regional iqtisadi inteqrasiya layihələrinin ölkəmizdə reallaşdırılmasına ehtiyac var. Biz qonşu dövlətlərlə iqtisadi əməkdaşlığımızın dərinləşməsinə getsək, ordan gələ biləcək turistlərin axınını eyni dərəcədə sürətləndirərik. Bu həm sənədləşmə ilə bağlı olan məsələlərin sadələşdirilməsinə şərait yaradacaq, həm də əlavə xərclərin turistlər tərəfindən ödənilməməsi Azərbaycan turizm bazarında onlar üçün daha əlverişli olacaq".

**Çimnaz Şahlar**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 233



## Ağsuda baxımsız, kimsəsiz vəziyyətdə yaşayan tənha qadın...

### Əzəmət Mikayılova xəstəxanaya yerləşdirilib

**Ağsunun Ərəbmehdibəy kəndində baxımsız, kimsəsiz vəziyyətdə yaşayan Əzəmət Mikayılova Ağsu Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib.**

Bu barədə Sosial Xidmətlər Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Murad Həşimov məlumat verib.

O diqqətə çatdırıb ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinə xəbər daxil olduğu andan etibarən məsələ ilə bağlı lazımi proses başlanıb: ”Vətəndaşın yaşadığı əraziyə səfər etdik. Yerində ilkin müayinə üçün əraziyə tibbi-həkim briqadası da dəvət olundu. Vətəndaş ilkin müayinəsi aparılaraq Daxili İşlər Nazirliyi, yerli icra hakimiyyəti nümayəndəsi və təcili tibbi yardım əməkdaşlarının iştirakı ilə Ağsu Rayon Mərkəzi Xəstəxanasına yerləşdirildi.(apa) Buradan isə onun səhhətində olan problemlər nəzərə alınaraq, aidiyyəti ixtisaslı tibb müəssisəsinə göndərildi. Əzəmət Mikayılova barəsində məlumat verən və o cümlədən onunla bağlı prosesdə iştirak edən aidiyyəti qurumların əməkdaşlarına təşəkkür edirik!”

## Telefonu şalvarın cibinə qoymayın!

### Sonsuzluq və ciddi onkoloji xəstəliklər meydana gələ bilər



**Alimlər mobil telefonları saxlamaq üçün ən təhlükəli yerləri açıqlayıblar.**

Medicina.az xəbər verir ki, alimlər bunun üçün ən təhlükəli yerlərdən birinin avtomobil ”bardaçok”u olduğunu bildirib. ”Bardaçok”a qoyulan telefon qızdığına görə özündən toksiki maddələr sintez etməyə başlayır.

Qadjeti yastığın altında saxlamaq da düzgün deyil. Çünki bu zaman şüalanma nəticəsində yuxuya getmək çətinləşir ki, bu da səhər baş ağrısına səbəb olur.

Ən əsas isə telefonunuzu şalvarın cibinə qoymaqdan çəkinin. Həkimlər bildirirlər ki, yenə də şüalanma nəticəsində insanda sonsuzluq və ciddi onkoloji xəstəliklər meydana gələ bilər.









# İşdən evə uça-uça gəlir

## “Yarasa adam”ın dünyada tayı-bərabəri yoxdur

**Məlahət Rzayeva**

**7 yaşındaykən arzusu paraşütçü olmaqmış. Amma vinqsyutçu - idmanın vinqsyut növü ilə məşğul oldu. Türkiyənin Muğla bölgəsi, Fəthiyyə əyalətindəki 1965 metr yüksəklikdəki Babadağdan vinqsyutla uçaraq evinə gedən, evdən də iş yerinə yenə uçaraq gələn 49 yaşlı Cengiz Koçak indiyədək təxminən 9 min atlanış gerçəkləşdirib.**

”Şərq” ”Milliyet.com”a istinadən bildirir ki, Cengiz Koçakın uçuşları fəslə görə dəyişir. Məsələn, yay aylarında Cengiz işdən evə dönmək üçün 1965 metr yüksəklikdən atlanırsa, qışda 1200 metr yüksəklikdən atlanıb uçaraq evdən ofisinə gəlir. Cengiz Koçak həm də ”Yarasa adam” adıyla tanınır. Fəthiyyə Ölüdənizdəki Babadağ kanat yolunun baş direktoru vəzifəsindən çalışır. Burada həm də turistlər üçün restoran da fəaliyyət göstərir. ”Yarasa adam” nəzarət həyata keçirmək üçün gün ərzində kanat yoluyla 1200 metr yüksəkliyə çıxır. Bura işlərini tamamladıqdan sonra yenə də vinqsyut ilə Ölüdənizin maviənginliklərində süzərək ofisə dönür. Koçak Türkiyədə idmanın vinqsyut növü üçün 45 atlama nöqtəsi olduğunu deyir. Bu nöqtələri özünün kəşf etdiyini, dünyadakı ekstrim həvəskarlarının Türkiyə üzrə əlaqələndiricisinin də məhz özü olduğunu deyir. ”Antenlər, körpülər, uçurum, bina kimi sabit olan hər yürdən paraşütlə atlanmaq mümkündür. Belə yerlər yetərli dərəcədə yüksəklikdədirsə, vinqsyutla da atlanmaq olar. Bütün günüm, həyatım Babadağda keçir. Bura ilk dəfə gələndə evimin olduğu yerlə ən yüksək təpəmiz - 1965 metr yüksəklik arasındakı məsafəyə baxıb evə vinqsyutla gedə biləcəyimi düşündüm. Və bunu həyata keçirdim. Beləcə evdən işə, işdən də evə vinqsyutla gedib-gəlməyə başladım”. Göy üzündə ondan başqa kimsə olmadığı üçün tıxac problemi yaşamadığını gülə-gülə deyən Cengiz Koçak ”evdən işə 15 dəqiqəyə gəlirəm. İşdən evə dönməyim isə 1 dəqiqədir. Bu cür hərəkət edən yeganə adamam. Bunun dünyada başqa bir nümunəsi, hələ ki yoxdur” deyən Cengiz Koçak dünyada buna görə məşhurlaşdığını, hətta Almaniyadakı bir televiziyada yayımlanan bilik yarışmasına sual kimi salındığını deyib. C.Koçak idmanın vinqsyut növünə Kaliforniyada yiyələnib. Orada 2 ay təlim keçib. Dünyanın ən hündür zirvələrindən atlanıb. Türkiyəyə döndükdə ”haradan atlana bilərəm”, sualına cavab tapmaq üçün araşdırma aparıb və 4 il ərzində 45 nöqtə kəşf edib. Və indi Türkiyəyə ekstrim idman yaşamaq üçün gəlmək istəyənlərə yol göstərir.



## Malikanələrini 28 milyona satır

### Mülkdə 19 otaq var, onlardan 8-i yataq otağıdır





**Hollivud ulduzu Riçard Gir Aleksandra Silva 20 illik lüks villasını satır.**

**Axşam.az xəbər verir ki, Nyu-Yorkda, 20 hektar ərazidə yerləşən dəbdəbəli malikanə üç mərtəbəlidir. Mülkdə 19 otaq var. Onlardan 8-i yataq otağıdır. Eyni zamanda mülkün böyük hovuzu və futbol meydançası var.**

**Cütlük villanı 28 milyon dollar müqabilində yeni sahibinə təqdim edəcək.**

## Yıldız Tilbe vəsiyyətini açıqladı

### “Həyatımın kino və ya sənədli film olmasını istəmirəm”



**Türkiyəli müğənni Yıldız Tilbe ”Posta”ya verdiyi açıqlamasında vəsiyyətindən danışıb.**

**Axşam.az xəbər verir ki, müğənni bəstələdiyi mahnıların bir çoxunu ifa etmədiyini bildirib:**

**”Onları yazarkən qırmızı göz yaşı tökürdüm. O qədər kədərli idim ki, ağlayırdım. İndi o mahnıları necə oxuyum? Ona görə də həmin kağızların çoxunu cırmışam. İstəmirəm kimsə mənə görə kədərlənsin”.**

**Sənətçi məşhurluğun əslində bir cəza olduğuna inandığını söyləyib:**

**”Bəlkə də kənardan göründüyü xüsusi insan deyiləm. Kim haradan bilə bilər ki? Bəlkə də insanların bizdə gördüyü özəllik cəzamızdır. Bir yerdə yemək yeyə, dənizə gedə, başqaları kimi yolda ağlaya, rahat alış-veriş edə bilərik? Bəlkə də bu cəzadır”.**

**Yıldız Tilbe ölümündən sonra həyatının ekranlaşdırılmasını istəmədiyini bildirib: ”Həyatımın kino və ya sənədli film olmasını istəmirəm. Çünki həyatımı ifadə edə bilməyəcəklər”.**

## Hipnozla 16 kilo arıqladılar



**Detoks düşərgəsi, idman- arıqlamaq üçün hər şeyi sınayan aktyor Enis Arıkan və aktrisa Ezgi Mola karantində aldıqları çəkidən hipnozla xilas olublar.**

**Oxu.az xəbər verir ki, bu barədə Hürriyet qəzeti məlumat yayıb.**

***Qeyd olunub ki, iki yaxın dost 1,5 ayda 16 kilo arıqlayıb.***



# Böyük səhra dondu

## Məşhur qum təpələri buz bağladı



**Səudiyyə Ərəbistanında iqlim möcüzəsi yaşanır. Ərəbistan yarımadasındakı Böyük Səhra nadir hallarda baş verən dolu fırtınasının ardınca qar və buzla örtülüb. Möcüzəli təbiət hadisəsinə şahidlik etmək istəyən səudiyyəlilər səhraya axın edib, qartopu oynayıb, qarın üstündə süfrə açaraq çay, qəhvə məclisləri açıblar.**

”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, səhrada qum təpələri də qar və buzla örtülüb. Səudiyyənin Təbuk bölgəsində də qar yağıb, sakinlər qarı görmək və soyuq havadan həzz almaq üçün Badəm Dağı adıyla tanınan Jabal al-Lavza axın ediblər. Həmçinin Mədinə şəhərinin cənub-qərbindəki Bədr Valiliyində də qar yağıb. İnsanların küçəyə çıxaraq qarın yağmasını izləmələrini əks etdirən, yüksəklikdən çəkilmiş fotolar yayılıb. Səhrada qar yağması nadir hadisə olsa da, bəzən təbiət şıltaqlığını göstərir. Soyuq hava kütlələri geniş ərazilərdən keçərək çöllərə doğru hərəkət edir və havanın temperaturu xeyli aşağı düşür. Bu cür antisiklonlar adətən Orta Asiya üzərindən saat əqrəbi istiqamətində hərəkət edərək Ərəbistan yarımadasına çatır. Nəticədə adətən 58 dərəcəyədək istilik olan səhra buzla örtülür.

**Məlahət**

## Di Kaprio Los-Ancelesdəki evini satmaq qərarı verib



**Hollivud ulduzu Leonardo Di Kaprio Los-Ancelesdəki evini satmaq qərarı alıb.**

Axşam.az xəbər verir ki, 1926-cı ildə Tudor dövrünün memarlığına uyğun dizayn edilən ev, bugünkü müasir memarlıq ilə sintez edilib.

Hündür tavanları və geniş otaqları olan evdə mətbəx, yemək otağı, kinoteatr, terras, idman zalı, ofis, hovuz və spa var.

Leonardo sözügedən malikanəni 4,9 milyon dollara satmağı planlaşdırır.

*Qeyd edək ki, o, evi 4 il əvvəl məşhur müğənni Mobidən satın alıb.*

## Təhlükə hələ sovuşmayıb

### Hər 12 saniyədə bir nəfər koronavirusdan ölüb




**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus ”Covid-19”un ”Omicron” ştammı ilə bağlı xəbərdarlıq edib. O qeyd edib ki, sözügedən ştammın son variant olduğunu iddia etmək təhlükəlidir.**

”Şərq” ”Cumhuriyet”ə istinadən xəbər verir ki, İsveçrənin Cenevrə şəhərində ÜST-nin 150-ci İcraiyyə Şurasının iclası videokonfrans formatında işə başlayıb. Qebreyesus epidemiyanın sonunun gəlməsi haqqında düşünməyin təhlükəli olduğunu izah edib:

”Omicron”un son variant olacağını və ya oyunun sonu olduğunu düşünmək təhlükəlidir. Əksinə, qlobal miqyasda daha ölümcül variantın ortaya çıxma potensialı çox realdır” .

A.Qebreyesus nitqində epidemiyanın başlamasından sonrakı iki il ərzində dünya üzrə 350 milyon yoluxma halının və 5,5 milyon ölüm hadisəsinin olduğunu bildirib:

”Hamımız bilirik ki, bu rəqəmlər daha yüksəkdir”.

Keçən həftə orta hesabla hər üç saniyədə bir ÜST-yə 100 yoluxma faktının bildirildiyindən bəhs edən T.A.Qebreyesus hər 12 saniyədə bir insanın ”Covid-19”dan öldüyünü qeyd edib.

Həmçinin o, ”Covid-19”dan ölümlərin peyvəndləmənin ən az olduğu Afrikada artmasına diqqət çəkib.

**Cəmilə ƏZİM**

## 20 ildən sonra üzü güldü

### Cərrahi əməliyyatla çiyin və qol köçürülən kişinin durumu yaxşıdır





**2021-ci ildə tibdə baş verən ən yadda qalan elmi uğurlardan biri də hər iki qolu olmayan kişiyə donor qol və çiyni köçürülməsi əməliyyatı idi.**

Medicina.az xəbər verir ki, 1988-ci ildə işdə qəza zamanı yüksək gərginlikli elektrik vurmasından hər iki qolunu çiyindən itirən Feliks 3 ay komada qalıb. Cərrahlar onu xilas etmək üçün qollarını ampitasiya etməli olub.

20 ildir ki, o, donordan orqan köçürülməsi üçün müraciət edib, uyğun qol tapılacağını ümidlə gözləyirdi. Nəhayət 2021-ci ildə o qollarına qovuşur.

4 cərrah briqadasının qatıldığı əməliyyat 14 saat çəkmişdi. Ona çiyin sümükləri də əlavə olaraq qoyulub. Bu vaxta kimi belə kombinə olunmuş köçürülməni heç kim icra etməmişdi.

Fransız cərrahlar 15 əzələ, qığırdaq, 2 arteriya, 3 vena və onlarla siniri bərpa ediblər.

Fantastik əməliyyatdan düz bir il ötüb. Feliks hazırda qollarını aktiv işlədir, qızını qucaqlayır, səyahət edir, instagramda aktivdir.

O, yeni qollarına rahat uyğunlaşdığını bildirib. 9 aydan sonra barmaqlarındakı sinirlər də bərpa olub. 2021-ci ili bütünlükdə o hər ay klinikada reabilitasiyada keçirib.